

## Azərbaycan 4 iranlı diplomata 48 saat vaxt verdi

*Xəbər verdiyimiz kimi, İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı İran səfirinə son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib. İran səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana...*

Səh.3


# UNİKAL

№13 (2147) 7 aprel 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Cahangir Əsgərovla bağlı şok iddia



Səh.9

## Təhlükəsizliyimizə təhdid yaradan "casus yuvası"

## AZAL daxilində ikitirəlik - QSC prezidenti uçuş biletlərinin ucuzlaşmasına mane olur?

*"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) bahalı uçuş biletləri ilə bağlı ilginc iddia ortaya atılıb. Bu barədə "Unikal"a daxil olan məlumata görə, QSC rəhbərliyində biletlərin hazırkı qiyməti ilə bağlı ikitirəlik yaranıb. Bir qrup ucuzlaşma tərəfdarı olsa da, AZAL prezidenti Cahagir Əsgərov və yaxın ətrafı belə bir qərarın verilməsinə qarşı çıxır. "Bəzi yerli KİV-lər bir müddətdir yazır ki, 2021-ci ilin martında bir sıra digər iri dövlət müəssisələrində olduğu kimi, "Azərbaycan Hava Yolları"nda da yaradılan Müşahidə Şurası AZAL-dan məlum şikayətlərin azalmasına gətirib çıxarmayıb. Belə ki, Müşahidə Şurası qiymətlərin optimallaşdırılması istiqamətində...*

Səh.2

## "İranın Azərbaycana qarşı etdikləri müsəlman ölkəsinə yaraşmır"



*Milli Məclisin deputatı Elman Nəsirov "Unikal"a müsahibə verib. O, deputat həmkarı Fazil Mustafaya qarşı törədilən terror aktından, İranın Azərbaycana qarşı münasibətinin kəskinləşməsindən, Azərbaycanın İsraildə səfirlik açmasının əhəmiyyətindən və İranın Azərbaycana qarşı hansısa hərbi addım ata...*

Səh.4

## "Azərbaycanda zərərli dini və siyasi düşüncənin kök salmasına imkan yoxdur"



*Azərbaycanın zərərli dini cərəyanlara, dindən istifadə edərək bölücülük, təfriqə, dini radikalizm, düşmənçilik yaymaq istəyən qüvvələrə qarşı vahid ideoloji xətti və siyasi kursu mövcuddur. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. M.Qurbanlı Azərbaycanın multikultural və tolarant...*

Səh.8

## Ziya Məmmədovun havaya sovurduğu milyonlarla bağlı yeni qalmaqal



*Paytaxtda və ətraf ərazilərdə tıxaclar getdikcə artmaqdadır. Sanki mənzərə yaranır ki, nəqliyyat sistemi idarəolunmaz vəziyyətə gəlib. Bəs hökumətin bununla bağlı hansı tədbirləri var? Yola saldığımız həftə mövzu ilə bağlı danışan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov...*

Səh.6

# Zərərli vərdişlərə sövq edən mahnılar açıqlandı - Siyahı



***Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi zərərli vərdişlərdən istifadəni, tüfeyli həyat tərzini, mental dəyərlərimizə zidd olan davranışları təbliğ edən, aqressiv hərəkətlərə və özünəqəsdə sövq edən mahnıların siyahısını tərtib edib.***

Siyahı "Mahnılarımız monitorinq aynasında" adlı kitabda öz əksini tapıb. Həmin mahnılar müəllif və ifaçılarının adları ilə birlikdə qeyd olunub.

**Həmin mahnı nümunələri aşağıdakılardır:**

- İlkin Çərkəzoğlu - "Aparır, kayf aparır", "Bomba kayfda", "Kayfim zor olanda" mahnısı;
- Məhəmməd Fəda - "Zır kayfdayam bu gün";
- Rüzgar - "Yenə gedirəm";
- İlqar Dəniz & Orxan Eşqin - "Nə, nə, nə nəşəni çəkdim, xu, xu, xu xumar apardı";
- Sənan & V?li & Arzu - "Bu da təzə temadır, yetim";
- Simral Qasımoğlu & Asif Əhmədli - "Zəhrimar";
- Said & Samid - "Nağaracuğa";
- Elçin Göyçaylı - "Ley-pey olmuşam";
- Toğrul Göyçaylı & Nurlan Göyçaylı - "Adam nə qədər ley-pey?";
- Şamil Vəliyev - "İçirəm mən";
- İlqar Dəniz - "İçirəm";
- Elvin Elcan - "Kefliyəm";
- Elçin Göyçaylı - "Mey gətir";
- Ramil Sədalı - "Gecə ləzzət eləyir";
- Fərəcov & Cavid - "Nivalar dəlilərindir";
- Fərhad - "Şəhər xuliqanları";
- İlqar Dəniz & Orxan Eşqin - "Xuliqanski";
- Samir Ilqarlı & Tural Səda - "Avtoşlar"
- İlqar Dəniz & Orxan Eşqin - "Avtoşlar-2" (İlqar Dəniz & Orxan Eşqin - "O yana, bu yana");
- Fərəcov - "Gedirik Nabrana";
- Fərid Biləcərili & Hakim - "Sür, ay qardaşım";
- Məhəmməd F?da & Elnur Ağdamlı - "Avtoşdur bunlar"
- Vüqar Səda - "Ay yetim";
- Orxan Dəniz - "Mənim balam şor dadır";
- Gülağa - "Hayıf məndən";
- Narana Paşayeva - "Əmim oğlu, neylədin?";
- Ülviyyə Namazova - "Evli insan sevirəm";
- Azəri oğlu Cəfər - "Evli qadın sevirəm";
- Dərya Eyvazova - "Nə gedər";
- Rza & Elmir Əliyev - "Yeri var";
- İlqar Dəniz & Orxan Eşqin - "Maç ela";
- İlqar Dəniz & Orxan Eşqin - "Verməyəcəyəm";
- İlqar Dəniz & Orxan Eşqin - "Qız tuturam";
- İlqar Dəniz - "Bu nə dvijeniyadır";
- Elcan Həsənov - "Na bomba xumardır bu";
- Sevgi - "Öp, öp";
- Orxan Eşqin & İlqar Dəniz - "Ay, ay, of, of"
- Orxan Eşqin & Aysel Şirin - "Ölürəm öpüşmək üçün";
- Samir İlqarlı & Mahir Aybrat & Tural Səda - "Padxod-2";
- Elvin Xəyal - "Kül bunun qız başına";
- İlqar Dəniz & Orxan Eşqin - "Üzün meymuna oxşar";
- Cavad Rəcəbov - "Balaca kişi";
- Orxan Dəniz & Aşıq Səbuhi - "Mənim balam bal dadır";
- Şəbnəm Tovuzlu - "Baldır balam";
- Üzeyir Mehdizadə & Rəqsanə - "Dəli balam";
- Mehriban - "Dəli balam";
- Aygül Səfərova - "Dəlidir balam";
- Səmra - "Bandam";
- Səmra - "Armas"; "Göz";
- İlqar Dəniz & Orxan Eşqin - "Zor eləmişəm";
- Üzeyir Mehdizadə "R?dd el?!";
- Nüşabə Musayeva "Partlaya-partlaya";
- İlqar Dəniz - "Sevənə söyüş qoymuşam";
- Canan - "Ürəyi partladı";
- Günay İbrahimli "O kimdir ki?!";
- Tural Sədalı - "Özümü atdım Xəzərə";
- Mehdi Sadiq & Noton - "Yaşamaq lazım";
- Üzeyir Mehdizadə - "Kəsəcəyəm damarları".



# "Həyatıma mane olurdu, boşandım" - Dilarə Kazımova

***"Avroviziya 2014" təmsilçimiz Dilarə Kazımova "AStar" verilişində qonaq olub.***

"Unikal" xəbər verir ki, müğənni proqramda ilk dəfə keçmiş həyat yoldaşından boşanma səbəbini açıqlayıb: "Həyatımda nə baş verdisə 2014-cü ildə oldu. "Avroviziya"ya qatıldım, ailə qurdum. Çox şad idim ki, həyatımda bu yarışma oldu. Hətta fikrimdə yenidən getmək də var. O vaxt ailə qurdum və 2 il sonra boşandıq. O, fəaliyyətimə mane olurdu və buna görə də ayrıldıq. Əvvəlcədən hər şey çox gözəl idi. Hətta "Avroviziya" olanda mənə çox dəstək olmuşdu".

# Rəşad Dağlının məhkəməsi bu tarixdə olacaq

***Qonşusunu qətlə yetirməkdə ittiham olunan meyxanaçı Rəşad Dağlının (Əmirov) cinayət işi üzrə məhkəmə iclasının vaxtı məlum olub.***



"Unikal" APA-ya istinadən xəbər verir ki, iş üzrə hazırlıq iclası aprelin 17-ə təyin edilib.

İş Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə araşdırılacaq.

Qeyd edək ki, Rəşad Dağlı qonşusu - 1979-cu il təvəllüdlü İsgəndər Mehdiyevi maşında bıçaqla qətlə yetirməkdə təqsirləndirilir.

Hadisə ötən ilin noyabr ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsində qeydə alınıb.

Rəşad Dağlı barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə yekun ittiham irəli sürülüb. Meyxanaçı verilmiş ittihamla təqsirli bilinərsə 9 ildən 14 ilə kimi azadlıqdan məhrum edilə bilər.

# Gülben Ergen xəstəxanaya yerləşdirildi

***Məşhur müğənni Gülben Ergen səhhətində yaranan problemə görə xəstəxanaya yerləşdirilib.***

"Unikal" xəbər verir ki, bu barədə sənətçi sosial media hesabından paylaşım edib: "Həftələrdir acını ən dərindən hiss edib, yaşayıb, qəbullanan və onunla mübarizə aparan ruhum sonda məni yıxmağı bacardı. Yaxşı ki, oldu, dayana bildim".





# Ordumuzun Naxçıvandakı birləşmələrinə həyəcan siqnalı verildi

***"Əlahiddə Ümumqoşun Ordunun 2023-cü tədris ilinə hazırlıq planı"na uyğun olaraq tabelikdə olan birləşmə və hissələrlə ərazidə komanda-qərargah təlimi keçirilib.***

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, təlimin ilkin mərhələsində birləşmə, hissə və bölmələrin təlim döyüş həyəcan siqnalı ilə qaldırılaraq döyüş təyinatı rayonlarına çıxarılması və döyüşə hazırolmanın müxtəlif dərəcələrinə gətirilməsi üzrə fəaliyyətlər yerinə yetirilib.

Döyüş təyinatı rayonlarında əsas diqqət birləşmə, hissə və bölmələrin ərazidə maskalanmasına, müdafiə və mühafizəsinə, xüsusilə düşmənin pilotsuz uçuş aparatlarına qarşı mübarizə tədbirlərinin icrasına yönəldilib.

Təlimin əməliyyatların planlaşdırılması mərhələsində yaranmış taktiki şəraitə uyğun olaraq qərargahlar tərəfindən əməliyyat şəraiti qiymətləndirilib, tabelikdə olan birləşmə, hissə və bölmələrin tapşırıqları dəqiqləşdirilib.

Planlaşdırmanın gedişində qərargahlar tərəfindən komandirlərin çevik qərar qəbuletməsi və bölmələrin idarə olunması üçün taktiki hesabatlar aparılıb və zəruri məlumatlar hazırlanıb. Alınan qərarlar rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə praktiki fəaliyyətlərə cəlb olunmuş bölmələrə çatdırılıb.

Təlimin gedişində hava hücumundan müdafiə bölmələri şərti düşmənin aviasiya vasitələrinin aşkarlanması və izlənməsi üzrə praktiki fəaliyyətləri yerinə yetirib.

Təlimin ssenarisinə uyğun taktiki fəaliyyətlərin praktiki icra mərhələsində xüsusi təyinatlı qruplar tərəfindən düşmənin müdafiəsinin ön xəttində yerləşən döyüş mövqelərinə və vacib obyektlərə basqın keçirilib. Mövqelər ələ keçirildikdən sonra irəliləmə marşurutlarında şərti düşmənin yaxınlaşan ehtiyatlarına pusqular qurularaq hərəkətləri məhdudlaşdırılıb və irəliləməsinin qarşısı alınıb.

Yaranmış vəziyyətdən yararlanaraq mexanikləşdirilmiş bölmələr artilleriya atəşinin dəstəyi ilə düşmənin müdafiəsinin dərinliyinə irəliləyərək əlverişli hədləri ələ keçirib.

Taktiki fəaliyyətlərin icrasında komandirlər tərəfindən bölmələrin düzgün və dəqiq idarə edilməsinə və əməliyyatlar zamanı tabelikdəki bölmələrin fasiləsiz olaraq bütün növ təminatlarla təmin olunmasına xüsusi diqqət yetirilib.

Təlimin kompüter dəstəkli mərhələsində qəbul edilmiş qərarların və aparılmış hesabatların reallığı Simulyasiya Mərkəzində kompüterlər üzərində yoxlanılıb.

Xüsusi təyinatlı, artilleriya, hava hücumundan müdafiə, rabitə, təminat və mexanikləşdirilmiş bölmələrin birgə fəaliyyəti nəticəsində qarşıya qoyulmuş məqsədlərə nail olunduğu təlimdə qoşunların döyüşə hazırolma vəziyyətinə gətirilməsində və əməliyyatların planlaşdırılmasında qərargahların hazırlıq səviyyəsi yüksək qiymətləndirilib.

Əlahiddə Ümumqoşun Ordunun Döyüşü İdarəetmə Mərkəzində yaradılan monitorinq qrupunun təhlili zamanı təlimin gedişində qoşunların hərəkətilə bağlı sosial şəbəkələrdə heç bir videomaterialın yayımlanmadığı müşahidə edilib. Əlahiddə Ümumqoşun Ordu komandanlığı hərbi sahədə dövlət sirri təşkil edən məlumatların qorunmasına diqqət göstərən əhaliyə təşəkkürünü bildirir.

# Cahangir Əsgərovla bağlı şok iddia

## AZAL daxilində ikitirəlik - QSC prezidenti uçuş biletlərinin ucuzlaşmasına mane olur?

***"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) bahalı uçuş biletləri ilə bağlı ilginc iddia ortaya atılıb. Bu barədə "Unikal"a daxil olan məlumata görə, QSC rəhbərliyində biletlərin hazırkı qiyməti ilə bağlı ikitirəlik yaranıb. Bir qrup ucuzlaşma tərəfdarı olsa da, AZAL prezidenti Cahagir Əsgərov və yaxın ətrafı belə bir qərarın verilməsinə qarşı çıxır.***

"Bəzi yerli KİV-lər bir müddətdir yazır ki, 2021-ci ilin martında bir sıra digər iri dövlət müəssisələrində olduğu kimi, "Azərbaycan Hava Yolları"nda da yaradılan Müşahidə Şurası AZAL-dan məlum şikayətlərin azalmasına gətirib çıxarmayıb. Belə ki, Müşahidə Şurası qiymətlərin optimallaşdırılması istiqamətində müəyyən addımların tərəfdarıdır. Buna baxmayaraq, Əsgərov qurumun ciddi borc bataqlığında olduğu üçün belə addımlara qarşı çıxır" deyə qaynaqlar iddia edir.

Xatırladaq ki, "Azərbaycan Hava Yolları"nda Müşahidə Şurası yaradılarkən bir sıra iqtisadçı ekspertlər, millət vəkilləri mətbuata açıqlamalarında bildirirdilər ki, sözügedən Şura "Azərbaycan Hava Yolları"nda növbəti 6 ay ərzində praktik olaraq bütün istiqamətlər üzrə xarici şirkətlər cəlb edilməklə, diaqnostik qiymətləndirmələr və təhlillər aparılacaq. Bu mərhələ həmin şirkətlərin fəaliyyətlərindəki səmərəliliyi artırmaq, daha şəffaf, daha qənaətcil, fiskal idarəetmə siyasəti həyata keçirmək məqsədi daşıyacaq.

Ən böyük gözləntilər isə o idi ki, Müşahidə Şurası yaradıldıqdan sonra, postpandemiya dövründə biz həm "Azərbaycan Hava Yolları"nın təklif etdiyi xidmətlərin, həm də biletlərin qiymətlərinin optimallaşdırılmasını görəcəyik. "Bu, turizmin inkişafı baxımından da çox vacibdir" - deyə həmin açıqlamalarda bildirilirdi.

Lakin Müşahidə Şurasının fəaliyyətə başlamasından təxminən iki ilə yaxın vaxt keçsə də, biz AZAL-ın uçuş qiymətlərində hər hansı optimallaşma, ucuzlama hiss eləmirik. Bu da belə fikirlərin yaranmasına gətirib çıxarmışdı ki, Müşahidə Şurası Cahangir Əsgərovun anormal qiymət siyasətinə müdaxilə edə bilmir.

Elə indi uçuş biletlərinin qiymətləri ilə bağlı "Azərbaycan Hava Yolları" daxilində ikitirəliklə bağlı deyilənlər də yuxarıda yazılanları təsdiqləyir.

Ən maraqlısı isə odur ki, bir neçə gün öncə Azərbaycan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov mövzu ilə əlaqədar ilginc açıqlama verdi. Bildirdi ki, ""Azərbaycan Hava yolları" ilə bağlı aparılan islahatların əsas hədəflərindən biri məhz qiymətlərin optimallaşdırılmasıdır".

Düzdür, R.Hümmətov onu da dedi ki, AZAL-ın qiymətləri rəqibləri ilə müqayisədə o qədər də baha deyil: "AZAL-ı öz sinfinə və xidmət kateqoriyasına uyğun şirkətlərlə müqayisə etsək, görərik ki, qiymətlər, əslində, göstərilən xidmətlərə mütənasibdir". Bununla belə, nazir müavini cəmiyyətdə "Azərbaycan Hava Yolları"nın uçuş biletlərinin qiymətləri barədə narahatlıqlara da həssas mövqe sərgilədi. Sitat: "...əlbəttə ki, biz də aviabiletlərin daha ucuz olması, AZAL-ın xarici vətəndaşları ölkəmizə daşıyan şirkətə çevrilməsi, Heydər Əliyev Hava Limanının beynəlxalq tranzit məkana çevrilməsi istiqamətində işlər



aparırıq. Hazırda bu istiqamətdə aparılan müvafiq tədbirlərin nəticəsi olaraq artıq müştərilərə müxtəlif qiymətlərdə biletlər təqdim edilir. Populyar istiqamətlər üzrə qiymətlərə nəzər yetirsək, Bakı-Moskva bileti almaq istəyən sərnişinə "Buta Airways" ilə 29 avrodan, AZAL ilə isə 135 avrodan, Bakı-Dubay istiqaməti üzrə AZAL ilə 133 avrodan, Bakı-İstanbul reysi üzrə "Buta Airways" ilə 29 avrodan, AZAL ilə isə 114 avrodan başlayaraq seçim imkanı var.

Uzunmüddətli inkişaf strategiyasında təyyarə parkının yenilənməsi ilə yanaşı, qiymət siyasəti də nəzərə alınıb. Daha ucuz aviabiletlərlə bağlı AZAL tərəfindən müəyyən kampaniyalar keçirilir. 2022-ci ilin sonlarında AZAL 9 istiqamət üzrə 29 avrodan başlayan qiymətlərlə 10 min aviabileti satışa çıxarıb və bu kimi kampaniyaların gələcəkdə də baş tutması nəzərdə tutulur.

Onu da qeyd edək ki, AZAL tərəfindən sərnişin tutumu daha çox olan təyyarələrin alınması nəzərdə tutulub. Bu da, öz növbəsində, biletlərin qiymətinə təsir edəcək".

Bir sözlə, belə görünür ki, cəmiyyətin az qala bütün kəsimlərinin narahatlıqları, narazılıqları, hətta Milli Məclis səviyyəsində, deputatlar tərəfindən davamlı dilə gətirilən tənqidlərin müsbət nəticəsini görmək üçün çox gözləmək lazım gəlməyəcək: Cahangir Əsgərov və ətrafının bütün müqavimətinə baxmayaraq "Azərbaycan Hava Yolları"nın anormal, fantastik qiymət siyasətinə yenidən baxılacaq.

Ümidlər, gözləntilər belədir. Nəticəni isə zaman göstərəcək. Odur ki, bir az da gözləyək...

***Sənan Mirzə***

# Təhlükəsizliyimizə təhdid yaradan "casus yuvası"

## Politoloq: "Məscidlərdə İranmeyilli qüvvələr at oynadırsa, bu məsələlər toylara qədər sıza bilirsə, deməli, məsələ kifayət qədər ciddidir"



***Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq əməkdaşları tərəfindən bir qrup şəxsin İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində və dini təbliğat yolu ilə ələ alınaraq ölkə ərazisində sabitliyin pozulması istiqamətində törədəcəkləri cinayət əməllərinin qarşısının alınması məqsədilə birgə xüsusi kompleks əməliyyat tədbirləri həyata keçirilib.***

DİN-dən "Unikal"a verilən məlumata görə, müəyyən edilib ki, İranda yaşayan həmin ölkənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və Bəxtiyar Bayramov Tərtər rayon sakini Arif Cümşüdovu şirnikləndirici vədlər müqabilində ələ alaraq ona ölkə ərazisində silahlı iğtişaşlar törətməklə hakimiyyətin ələ keçirilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə şəriət qanunları ilə idarə olunan "Kərimə" dövlətinin qurulması məqsədilə "müqavimətçi dəstə" yaratması barədə tapşırıqlar veriblər. Arif Cümşüdov verilmiş tapşırıqlar əsasında ətrafında olan dini radikalizmi təbliğ edən tanışları - Tərzan Qaraşov, Sənan Məmmədov, Xəqani Məmmədov və İqbal Axundovu bu işə cəlb edib. O, yaşadığı evdə mütəmadi olaraq təşkil etdiyi gizli yığıncaqlarda Rufulla Axundzadə və Bəxtiyar Bayramovun göstərişlərini həmin şəxslərə çatdırıb. Dəstə üzvləri əlavə şəxslərin də cəlb edilmələri istiqamətində fəaliyyətlər göstərərək bu barədə Rufulla Axundzadəyə məlumat veriblər. Bundan başqa Rufulla Axundzadə Bakı şəhər sakini Anar İsayevi də əməkdaşlığa cəlb edərək ona da ölkə ərazisində iğtişaşların törədilməsi yolu ilə "Kərimə" dövlətinin qurulması üçün "müqavimətçi dəstə" təşkil etməyi tapşırıb. Rufulla Axundzadə yüksək maddi gəlir, silah və digər bütün lazımı dəstəyin veriləcəyini vəd edərək təşkilatlanmaları və birgə fəaliyyət göstərmələri məqsədilə Anar İsayevi Arif Cümşüdovla tanış edib. Saxlanılan şəxslər özlərini cəmiyyətdə "dindar" kimi qələmə verərək sosial şəbəkələr üzərindən, eləcə də insanların toplaşdığı mərasimlərdə İran və dini radikalizm lehinə təbliğat apararaq Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün xaricdən aldıqları tapşırıqları yerinə yetiriblər.

Dəstə üzvləri eyni zamanda İrandan məqsədli şəkildə göndərilən narkotik vasitələrin satışını təşkil edərək əldə etdikləri külli miqdarda pul vəsaitini məhz Azərbaycanda dini radikalizmin təbliğinə və digər pozuculuq fəaliyyətlərinin maliyyələşməsinə sərf ediblər. Bu istiqamətdə əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

Son dövlər baş verənlərlə bağlı fikirlərini "Unikal"la bölüşən politoloq Qabil Hüseynli deyib ki, müəyyən agentura şəbəkəsinin Azərbaycanda strukturlaşması, uzun illər boyu din və ideoloji sahələrdə kök salması bizim bu sahəyə diqqətimizin az olmasının nəticəsidir. Onun fikrincə, bu işlərlə məşğul olmalı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şeyxülislam Allahşükür Paşazadənin idarəsi çox ciddi səhvlərə yol veriblər. Politoloq hesab edir ki, təhsil almaq üçün İrana göndərilən və orada beyni yuyulan, ölkəyə ruhani-xadim kimi deyil, sırf İranın agenti kimi geri göndərilən şəxslər ölkədə dini-ideoloji işin aparılması prosesində şəbəkəyə çevriliblər: "Onlar İrandan alınan təlimatlar əsasında işləyirlər. Doğrudan da, ortada dəhşətli faktlar var. Bu, bizdə dövlətin onurğa sütununu təşkil etməli olan dini işlərlə əlaqədar təşkilatlar bu məsələyə nə qədər məsuliyyətsiz yanaşdıqlarını göstərir. Bundan sonra kimlərsə sinəsinə vurub deyəcək ki, bu qədər molları işdən kənarlaşdırmışıq, yenilərini qəbul etmişik, amma həmin şəxslərlə mübarizə aparmaq üçün çox kəskin üsullara əl atmaq lazımdır. Dini işlərlə məşğul olan təşkilatların səlahiyyətlərinin artırılması ilə bu işdə uğur qazanmaq olmaz".

Q. Hüseynli əlavə edib ki, bu məsələlərdə kadr çatışmazlığı və bu işlərə rəhbərlik edən şəxslərin səriştəsizliyi ciddi surətdə nəzərdən keçirilməlidir: "Adamlar dini prosesləri bilmədən və bu məsələlərin ölkənin ictimai-siyasi həyatına təsirlərini qəsdən nəzərə almadan bu sahəni başlı-başına buraxıblar. Nəticə etibarilə başqa dövlətin təsir dairəsi Azərbaycanda kök atıb, böyüyüb və ölkənin ictimai şüurunda az qala həlledici məqama çevrilib. Məscidlərdə İran meyilli qüvvələr at oynadırsa, bu məsələlər toylara qədər sıza bilirsə, deməli, məsələ kifayət qədər ciddidir. Dini işlərə rəhbərlik edən indiki şəxslərlə bu məsələləri aradan qaldırmaq mümkün olmayacaq. Təsirli tədbirlər həyata keçirmək lazımdır. Bu işin bütün anatomiyasını ortaya çıxara biləcək mütəxəssislər meydana çıxmalıdır. Biz həmin şəxslərdən işlərinə məsuliyyətsiz yanaşmalarına görə məsuliyyət tələb etməliyik. Onlardan soruşmalıyıq ki, indi yaranan ağır nəticələrə niyə vaxtında diqqət yetirməmisiniz? Nə işlə məşğul olmusunuz? Ortaya çıxacaq ki, bu adamlar tutduqları vəzifələrdən öz şəxsi rifahları üçün istifadə ediblər. Bu cür əhəmiyyətli ideoloji iş sahəsi isə başlı-başına buraxılıb. Onu da qeyd edim ki, casusluğa görə tutulan adamlar narkotik maddələrdən öz maliyyə vəziyyətlərini düzəltmək və yeni-yeni adamları öz sıralarına qatmaq üçün istifadə ediblər. İran onlara maliyyə yardımı ayırsa da, bu yardım çox vaxt Azərbaycana külli miqdarda narkotik vasitə gətirməklə də həyata keçirilib. İrana casusluğa görə saxlanılan bəzi şəxslərin yalnız narkotikə görə ittiham edilməsi yetərli deyil. Hesab edirəm ki, bu işin müxtəlif tərəfləri də ciddi surətdə araşdırılmalıdır", - deyə o qeyd edib.

***Murad İbrahimli***



# 39 partiya maliyyə hesabatı verdi

***Mərkəzi Seçki Komissiyasına (MSK) 2022-ci il üzrə maliyyə hesabatı verən partiyaların sayı 39-a çatıb.***

Daha iki siyasi partiya maliyyə hesabatını təqdim edib. Ağasif Şakiroğlunun rəhbərlik etdiyi Gələcək Azərbaycan Partiyası (GAP) və artıq fəaliyyətinə son verən Azərbaycan Naminə Alyans Partiyası (ANAP) MSK-yə ötən ilin hesabatını göndərib. Hər iki partiyanın hesabatında heç bir gəlir və xərclərin olmadığı qeyd edilib.

2022-ci il üzrə maliyyə hesabatını təqdim edən partiyalar bunlardır:

1. Yeni Azərbaycan Partiyası
2. Müstəqil Xalq Partiyası
3. Azərbaycan Təkamül Partiyası
4. "Milli Vəhdət" Partiyası
5. Vətəndaş Həmrəyliyi Partiyası
6. Demokratik İslahatlar Partiyası
7. Azərbaycan Demokratik Maarifçilik Partiyası
8. Böyük Quruluş Partiyası
9. Cümhuriyyət Xalq Partiyası
10. Klassik Xalq Cəbhəsi Partiyası
11. "Ana Vətən" Partiyası
12. Azərbaycan Liberal Demokrat Partiyası
13. Azərbaycan Xalq Partiyası
14. "Qorqud" Partiyası
15. "Ədalət" Partiyası
16. Müsavat Partiyası
17. Milli Cəbhə Partiyası
18. Vətəndaş və İnkişaf Partiyası
19. "Yeni Yol" Partiyası
20. Milli Dirçəliş Hərəkatı Partiyası
21. Yeni Zaman Partiyası
22. Müasir Musavat Partiyası
23. Milli Həmrəylik Partiyası
24. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası
25. Azərbaycan Milli İstiqlal Partiyası
26. "Birlik" Partiyası
27. Azərbaycan Demokrat Partiyası
28. Azərbaycan Ümid Partiyası
29. Ağ Partiyası
30. Azad Vətən Partiyası
31. Vəhdət Partiyası
32. Böyük Azərbaycan Partiyası
33. Azərbaycan Sosial Demokrat Partiyası
34. Azərbaycan Sosial Rifah Partiyası
35. Respublikaçı Alternativ (REAL) Partiyası
36. Azərbaycan Xalq Cəbhəsi Partiyası
37. Vətəndaş Birliyi Partiyası
38. Gələcək Azərbaycan Partiyası (GAP)
39. Azərbaycan Naminə Alyans Partiyası (ANAP)

Ümumilikdə Azərbaycanda ötən il dövlət qeydiyyatına alınmış 59 siyasi partiya olub ki, onlardan 39-u bu günədək MSK-ya maliyyə hesabatı verib.

Xatırladaq ki, Azərbaycandakı siyasi partiyalardan 8-i bu il fəaliyyətini dayandırmaq qərarına gəlib. Onu da bildirək ki, siyasi partiyalar qanunvericiliyə uyğun olaraq, yanvarın 1-dən aprelin 1-dək MSK-ya hesabat verməlidirlər.

# İlham Əliyevin Tacikistana səfəri başa çatdı



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına dövlət səfəri aprelin 6-da başa çatıb.***

"Unikal" xəbər verir ki, Düşənbə şəhərinin Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistan Prezidenti Emoməli Rəhmon yola salıb.

# Müdafiə Nazirliyi 29 min hektar ərazini minalardan təmizləyib



***Azərbaycan Ordusunun şanlı qələbəsi ilə bitən Vətən müharibəsindən bu günədək Müdafiə Nazirliyinin (MN) mühəndis bölmələri tərəfindən 29000 hektaradək ərazi minalardan təmizlənib.***

"Unikal" xəbər verir ki, bu barədə MN-in təşkilatçılığı ilə azad edilmiş ərazilərdə Azərbaycan Ordusunun fəaliyyəti ilə tanış olmaq məqsədilə bir qrup Türkiyə və yerli media nümayəndələri üçün təşkil edilən media-turda bildirilib.

Qeyd olunub ki, erməni hərbçiləri tərəfindən basdırılmış 23230 ədəd mina, eləcə də döyüş əməliyyatlarından qalma partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

# Azərbaycanda daha 3 nəfər koronavirusdan öldü



***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 79 yeni yoluxma faktı qeydə alınıb, 69 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 830 135 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 819 472 nəfər müalicə olunaraq sağalıb, 10 196 nəfər vəfat edib, aktiv xəstə sayı 467 nəfərdir.

Ölkədə son sutka ərzində 1 266, hazırkı dövrədək isə 7 567 697 test aparılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1800

# Peyvənd olunanların sayı AÇIQLANDI

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 175 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 112, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 20, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 33, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 10 nəfərdir.

Vurulan vaksinlərin ümumi sayı 13 956 979, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 408 608, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 880 157, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 3 402 204, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 266 010 nəfər təşkil edir.

# "Azərbaycanda zərərli dini və siyasi düşüncənin kök salmasına imkan yoxdur"

***Azərbaycanın zərərli dini cərəyanlara, dindən istifadə edərək bölücülük, təfriqə, dini radikalizm, düşmənçilik yaymaq istəyən qüvvələrə qarşı vahid ideoloji xətti və siyasi kursu mövcuddur.***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. M.Qurbanlı Azərbaycanın multikultural və tolarant dəyərlərin hakim olduğu, müxtəlif xalqların, dini konfessiyaların bərabərhüquqlu və qarşılıqlı hörmət şəraitində, birgəyaşayış ənənələrinə uyğun yaşadığı nümunəvi dövlətlərdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan vəhdət na-



mazlarının keçirilməsinin əhəmiyyətini təşviq edən müsəlman ölkəsidir.

"Azərbaycançılıq ideologiyası və dövlətin milli-mənəvi dəyərlərə söykənən siyasət yürütməsi bu gün hansısa zərərli dini və siyasi düşüncənin cəmiyyətdə kök salmasına imkan vermir. Ölkəmizdə milli ruhlu, vətənpərvər, dövlətçiliyə bağlı dini kadrlar hazırlanır. Prezident cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması çox böyük tarixi hadisədir. Gələcəkdə İnstitutun yetişdirdiyi ali təhsilli din xadimləri ölkəmizdə din adı altında hansısa xarici dövlətin dövlət-din münasibətləri modelinin formalaşması istiqamətində atacağı addımların qarşısını ala biləcək gücə çevriləcəklər", - Komitə sədri vurğulayıb.

# Britaniya nümayəndə heyəti Ağdam şəhərində səfərdə olub

***Xəbər verildiyi kimi, Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü və Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, səfər çərçivəsində aprelin 6-da Böyük Britaniya nümayəndə heyətinin üzvləri işğaldan azad olunmuş Ağdam şəhərində olublar, burada Ermənistanın işğal zamanı Azərbaycan ərazisində törətdiyi vandalizmi öz gözləri ilə görüblər. Səfər zamanı qonaqlar Ağdam Cümə məscidi və Ağdam Dövlət Dram Teatrının qalıqları ilə tanış olublar.

Nümayəndə heyətinin üzvlərinə Ermənistanın müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etməsi, bu ərazilərə çoxlu sayda mina basdırması barədə ətraflı məlumat verilib. Onlara bildirilib ki, Ermənistanın işğal etməsinə qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, uçurub və yandırıblar. Erməni vandalları hətta Şəhidlər xiyabanlarını, qəbiristanlıqları da dağıdıblar. Qonaqlara işğaldan azad olunduqdan sonra burada həyata keçirilən tikinti-quruculuq işləri barədə məlumat verilib, onlara Ağdamın Baş planı göstərilib. Böyük Britaniya nümayəndə heyətinin üzvləri Ağdamda minatəmizləmə fəaliyyəti ilə məşğul olan ANAMA əməkdaşları ilə də görüşüblər.

Sonra Böyük Britaniya Par-



lamentinin İcmalar Palatasının üzvü və Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən Ağdamda jurnalistlərə müsahibə verib, burada gördükləri barədə təəssüratlarını bölüşüb.

Ağdam səfəri zamanı Böyük Britaniya nümayəndə heyətini Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

# Azərbaycanda 7 faydalı qazıntı yatağı istifadəyə verildi

***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (ƏMDX) Hərracların Təşkili Mərkəzi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin birlikdə keçirdiyi növbəti hərracda 7 faydalı qazıntı yatağı istifadəyə verilib.***

"Unikal" bu barədə ƏMDX-ya istinadən xəbər verir. Məlumata görə, hərracda Abşeronda yerləşən "Qobu" gil və "Güzdək" əhəngdaşı yataqlarının hər birinin 5 hektar sahəsi, Ağdamda olan "Qarqar-



çay" qum-çınqıl yatağının 5 hektar, Şəmkirdəki "Alabaşlı" hematit yatağının 5,34 hektar, Göygöldə "Qızılca" plagioporfir yatağının 3 hektar, Qubada "Qorxmazoba" qum-çınqıl yatağının 25 hektar, Ağcabədidə "Şahmalı" qum-çınqıl yatağının isə 2 hektar sahəsi istifadəyə verilib.

Hərracda investorların fəallığı müşahidə edilib. Belə ki, "Qorxmazoba" qum-çınqıl yatağının LOT-1 və LOT-2 üzrə keçirilən hərracı olduqca rəqabətli olub. LOT-1 üzrə edilən ən son təklif 18 000 manatdan 500 000 manata, LOT-2 üzrə isə 18 000 manatdan 135 000 manata yüksəlib.

Hərrac vasitəsilə istifadəyə verilən faydalı qazıntı yataqlarının siyahısı ilə buradan tanış olmaq mümkündür: //clck.ru/344ecR

# Azərbaycan 4 iranlı diplomata 48 saat vaxt verdi

## Bu gedişlə diplomatik əlaqələr tamamilə kəsiləcək - İrandakı sabiq səfirimiz



***Xəbər verdiyimiz kimi, İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı İran səfirinə son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib.***

İran səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan edildiyi İran səfirinin diqqətinə çatdırılıb və həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib.

Rəsmi məlumatdan göründüyü kimi, İran rejimi Azərbaycana qarşı təxribatçı siyasətinə diplomatları da alət edib və onların vasitəsilə ölkəmizin əleyhinə məkirli fəaliyyətini davam etdirir.

Gərginliyin artması diplomatik əlaqələrin kəsilməsinə gətirib çıxara bilərmi? Bu barədə Modern.az-a danışan Azərbaycanın İrandakı keçmiş səfiri, tarixçi Nəsib Nəsibli vurğulayıb ki, iki ölkə arasında münasibətlər heç vaxt indiki qədər gərgin olmayıb. "Görünən odur ki, münasibətlər daha da gərginləşir. Yumşalma əlamətləri görünmür. Son vaxtlar baş verənlər nəticəsində Azərbaycan-İran arasında münasibətlər indiyədək tarixdə olmadığı qədər gərginləşib. Bundan sonra hansı addımların atılacağını təxmin etmək çətindir. Onsuz da əvvəldən iki dövlət arasında geopolitik bir düyün var idi. Mən bunu "kor düyün" adlandırıram", - deyə sabiq səfir bildirib.

N.Nəsibli vurğulayıb ki, Azərbaycanla İran arasında gərginlik davam edərsə, diplomatik əlaqələr tamamilə kəsilə bilər: "Münasibətlər bu həddə çatıbsa, gələcək mərhələ toqquşmalar ola bilər. Bildiyimiz kimi, Azərbaycan İrandakı səfirliyinin fəaliyyətini dayandırıb. Məncə, səfirlik təhlükəsizlik rejimində fəaliyyətinə davam etməliydi. Çünki diplomatik əlaqələrin kəsilməsi, ya da belə gərgin vəziyyətə gəlməsi çox ciddi böhrandan xəbər verir. Münasibətlərin inkişaf tempi gələcəkdə diplomatik əlaqələrin kəsiləcəyini deməyə əsas verir. Ümumiyyətlə, İranın atdığı addımlar və son olanlar sözügedən ölkənin iki dövlət arasında əlaqələrin normallaşmasını, qonşuluq münasibətlərinə geri dönməsini istəmədiyindən irəli gəlir".

# Bakıda orta məktəbdə kütləvi zəhərlənmə

## Prokurorluq məktəbdəki zəhərlənmə ilə bağlı araşdırmaya başladı

***Bakıdakı 20 nömrəli orta məktəbdə baş verən kütləvi zəhərlənmənin səbəbi məlum olub.***

"Unikal"ın məlumatına görə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov bildirib ki, məktəbdə 10-a yaxın şagird quş əti tərkibli qida qəbul edib:

"Onlar mədə ağrısı şikayətləri ilə müraciət ediblər. Təcili tibbi yardım briqadası çağırılıb və zərurət olan şagirdlər müayinə üçün xəstəxanaya aparılıblar. Onların vəziyyəti kafi, normal olaraq qiymətləndirilir.

Bu qidalar məktəb bufetinin müvafiq şirkət ilə razılaşması əsasında hazırlanır. Həmin şirkətə də bu barədə məlumat verilib. Aidiyyəti qurumlar da məsələni araşdırırlar. Müvafiq qurumlara məlumat verilib və aidiyyəti üzrə nəzarət ediləcək", - deyə B.Məmmədov qeyd edib.



A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseydə zəhərlənən şagirdlərin son durumu açıqlanıb. TƏBİB-dən "Unikal"a verilən məlumata görə, baş verən hadisə ilə əlaqədar qurumun tabeliyindəki Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət daxil olub.

Qeyd olunub ki, təcili tibbi yardım briqadaları dərhal hadisə yerinə cəlb edilib: "6 nəfər (4-ü oğlan, 2-si oğlan) TƏBİB-in tabeliyindəki Kliniki Tibbi Mərkəzin nəzdində olan 2 saylı Kliniki Uşaq Xəstəxanasına yerləşdirilib. Onlardan 3 nəfər ambulator müalicə üçün evə buraxılıb. Hazırda 2 nəfərə (vəziyyətləri qənaətbəxş) tibb müəssisəsinin Təcili tibbi yardım şöbəsində, 1 nəfərə (vəziyyəti ağır qiymətləndirilir) Reanimasiya şöbəsində zəruri tibbi xidmətlər göstərilir".

Bakı şəhəri 20 nömrəli məktəb-liseydə şagirdlərin qidadan zəhərlənməsi faktı üzrə Yasamal rayon prokurorluğunda araşdırma aparılır.

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, ilkin ehtimallara əsasən, şagirdlər quş əti tərkibli qidadan zəhərlənib.

Zəhərlənmənin səbəbinin müəyyənləşdirilməsi məqsədilə təhsil müəssisəsinin bufetindən qida nümunələri götürülərək müvafiq ekspertizalar təyin edilib.

# Bir sıra tibbi müəssisələrində çarpayı fondu ləğv edildi



***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi PHŞ-nın 13 mart 2023-cü il tarixli əmrinə əsasən "Bakı Baş Səhiyyə Mərkəzi" publik hüquqi şəxsin strukturuna daxil olan 9, 12, 13, 15, 18, 22, 28, 31 və 32 nömrəli Birləşmiş Şəhər Xəstəxanaları, Zabrat Müalicə Diaqnostika Mərkəzi, Kürdəxanı Sağlamlıq Mərkəzi və Zirə Müalicə Diaqnostika Mərkəzində stasionar fəaliyyət dayandırılmaqla çarpayı fondunun ləğv edilməsi, yalnız ambulator-poliklinik fəaliyyətinin təmin edilməsi nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bu barədə TƏBİB-dən APA-ya bildirilib. Qeyd edilib ki, məqsəd ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsi və optimallaşdırılması, ambulator-poliklinik fəaliyyətin müasir tələbatlara uyğun şəkildə təşkil olunmasıdır.

Qeyd edək ki, 12 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Bəhlul Məmmədov martın 27-də onun əmək fəaliyyətinə çalışmanın yaş həddinə çatması ilə əlaqədar xitam verilib. Bundan sonra 12 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında çarpayıların yığışdırılması, xəstəxanada dəyişiklik edilməsi və sağlamlıq mərkəzinə çevrilməsinə dair məlumat var idi. TƏBİB-dən qeyd edilib ki, 12 nömrəli Birləşmiş Şəhər Xəstəxanasına baş həkim vəzifəsinə yeni təyinat yoxdur.

# Dünya Bankından Azərbaycanın dövlət büdcəsi ilə bağlı proqnoz



***Dünya Bankı (DB) Azərbaycanın 2025-ci ilə kimi dövlət büdcəsi ilə bağlı proqnozunu yeniləyib.***

Bu barədə Dünya Bankının hesabatında bildirilib.

Hesabata görə, Azərbaycanın dövlət büdcəsinin ümumdaxili məhsulda (ÜDM) payı 2022-ci ildəki 5,5%-dən 2023-cü ildə 4,8%-ə enəcək. Büdcənin ÜDM-də payı 2024-cü ildə 4,0%, 2025-ci ildə isə 3,0% təşkil edəcək.

"Fiskal balansın ortamüddətli perspektivdə profisitdə qalacağı və ÜDM-in orta hesabla 3,9 faizini təşkil edəcəyi təxmin edilir" - Dünya Bankının şərhində qeyd edilib.

# Özbəkistan Azərbaycanla hərbi sazişi təsdiqlədi



***Özbəkistan parlamenti Azərbaycan hökuməti ilə hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq haqqında imzalanmış sazişləri təsdiqləyib.***

Bu barədə Özbəkistan parlamentinin mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, sözügedən sazişlər Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin iyun ayında Daşkəndə səfəri zamanı imzalanıb.

# Varis Ədəbiyyat Fondunun baş direktoru təyin edildi

***Azərbaycan Ədəbiyyat Fonduna yeni baş direktor təyin olunub.***

"Unikal" xəbər verir ki, bu vəzifəyə tanınmış yazıçı, Azərbaycan Yazıçılar Birliyi İdarə heyətinin üzvü Varis Yolçiyev gətirilib.

Qeyd edək ki, Varis Avrasiya Millətlər Assambleyası Ədəbiyyat Şurasının həmsədri, Beynəlxalq Yazıçılar Gildiyasının (İGOW Berlin, Almaniya), PEN klubun (PEN İnternational, İngiltərə) üzvü, Yazıçıların Beynəlxalq Nyu-York Konfransının iştirakçısıdır.

Xatırladaq ki, Azərbaycan Yazıçılar Birliyi Ədəbiyyat Fondu 1936-cü ildə yaradılıb, onun ilk rəhbəri həmin dövrdə Azərbaycan Yazıçılar İttifaqına sədrlik edən Məmmədkazım Ələkbərzadə olub.

# "İranın Azərbaycana qarşı etdikləri müsəlman ölkəsinə yaraşmır"

## Elman Nəsirov: "Əgər İran Azərbaycana hücum edərsə, belə olan halda Şuşa Bəyannaməsinə uyğun olaraq Türkiyə ilə də müharibə vəziyyətinə girmiş olur"

***Milli Məclisin deputatı Elman Nəsirov "Unikal"a müsahibə verib. O, deputat həmkarı Fazil Mustafaya qarşı törədilən terror aktından, İranın Azərbaycana qarşı münasibətinin kəskinləşməsindən, Azərbaycanın İsraildə səfirlik açmasının əhəmiyyətindən və İranın Azərbaycana qarşı hansısa hərbi addım ata bilmə ehtimalından danışıb.***

***-Elman müəllim, martın 28-də həmkarınız Fazil Mustafaya qarşı terror aktı törədilib. İlk öncə bu məsələ ilə bağlı fikirlərinizi bilmək istərdik...***

-Həmkarım Fazil Mustafaya qarşı törədilmiş cinayət əməli mahiyyət etibarı ilə terror aktıdır.Təsadüfi deyil ki, Dövlət Təhlükəsizliyi Xidməti də bu qiyməti verib. Cinayət işi başlayıb və bunun əsasında 6 nəfər həbs edilib. Həmin şəxslər dindirilir. Ona görə terror aktı hesab edirik ki, terrorçuluğun digər cinayətlərdən fərqi ondadır ki, terror əməlində eyni vaxtda 4 tərəf iştirak edir. Birinci təşkilat-təşkilatçılar, İkinci icraçı-icraçılar, üçüncüsü onun qurbanı-qurbanları və dördüncüsü isə sağ qalmış insanlardır. Terror əməlinin bütün digər cinayətlərdən fərqi ondadır ki, təşkilatçının və icraçının əsas hədəfi heç də qurbanlar deyil. Onların əsas hədəfi sağ qalmış insanlardır. Yəni, elə bir cinayət həyata keçirirlər ki, siyasi motivli olur və sağ qalmış insanlara mesaj ötürülür. İlk növbədə vətəndaşlar arasında hakimiyyətə qarşı etimadsızlıq mühiti formalaşdırmaq, ölkədə xaos yaratmaq, sabitliyi, əmin-amanlığı pozmaq, səfərbər olunmuş cəmiyyəti dağıtmaq əsas hədəflər sırasındadır. Fazil Mustafaya qarşı tətbiq edilən terror əməli Azərbaycanın dövlət və dövlətçiliyinin, sabitliyinin, xalq-hakimiyyət birliyinin hədəfə alınması deməkdir.Bunun arxasında konkret qüvvələr dayanır. Saxlanılan şəxslərin ilkin ifadələri göstərir ki, onlar dəfələrlə İranda səfərdə olublar. Onların təlim aldığı, üzərlərində hansı ideoloji işin aparıldığı və s. kimi məsələlər araşdırılır. Hələki konkret, birmənalı şəkildə ünvan göstərilməyib. Amma Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda da göstərilir ki, isti izlər İran istiqamətini göstərir.

***-Son günlər İran tərəfindən Azərbaycana qarşı hiddətin artdığı müşahidə olunur. Bu nə ilə bağlıdır?***

-Azərbaycan dövləti həmişə İranla mehriban qonşuluq münasibətlərinin saxlanılmasında maraqlı olub. Təəssüf ki, bu bir tərəfin istəyi ilə baş vermir. Münasibətlər o zaman normal və yüksək səviyyəli olur ki, bunu hər iki tərəf istəsin. İran dövləti tərəfindən bizim mehriban qonşuluq münasibətlərimizə zidd olan davranış tərzini görürük. Martın 11-də İran İslam Respublikasına məxsus hərbi təyyarə Azərbaycan-İran dövlət sərhədi boyunca, Zəngilan rayonu istiqamətindən Biləsuvar rayonu istiqamətinə və geriyə doğru uçuş həyata keçirib. Təyyarə iki ölkə arasında dövlət sərhədindən 3-5 km məsafədə, bəzi hallarda isə dövlət sərhədinin tam üstü ilə uçub. Bu ölkənin silahlı qüvvələri Azərbaycanla sərhəddə hərbi təlimlər keçirir. İranın dini və siyasi xadimləri Azərbaycan əleyhinə yalanlar, iftiralar söyləyib. Onların KİV-ləri, xüsusilə də "Səhər" kanalı gecə-gündüz anti-Azərbaycan təbliğatı aparır. İran rəsmiləri Ermənistanın ərazi bütövlüyünün onlar üçün qırmızı xətt olduğunu deyirlər. İran düşünürdü ki, Azərbaycan torpaqlarını işğaldan azad edə bilməyəcək. Onlar işğalda olmuş ərazilərimizdə əkin işləri aparıblar, oradakı evlərin daşlarını belə söküb aparıblar. Bununla yanaşı, həmin ərazilərdə narkotiklərin yetişdirilməsinə qədər çirkli prosesləri həyata keçiriblər. Eyni zamanda, İran şirkətlərinin Azərbaycanın təbii ehtiyatlarının talan edilməsi prosesində iştirakı ilə bağlı faktlar var. Bütün bunlar onu göstərir ki, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi İran üçün gözlənilməz hadisə olub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Ordumuzun qazandığı tarixi qələbə bir çox dövlətlərin maskalarını cırdı, onların eybəcər simasını üzə çıxardı. Təəssüf ki, İran dövləti bu sırada ön planda gedir. Bu ölkə barışa bilmir ki, Azərbaycan öz gücü hesabına torpaqlarını işğaldan azad edib. Hesab edirəm ki, İranın bu davranışı, Azərbaycana qarşı etdikləri müsəlman ölkəsinə yaraşmayan hərəkətlərdir. İran islam dövlətidir, Azərbaycan müsəlman ölkəsidir. İranın rəsmi dövlət ideologiyasına əsaslansaq, bu ölkənin yaxın dostu Azərbaycan olmalı idi. Ona görə ki, onlar da, biz də müsəlmanıq. Amma fərqli yanaşma görürük. Sanki Ermənistan müsəlman ölkəsidir, biz dinimizi dəyişmişik, xristian olmuşuq. Bu qədər eybəcər yanaşma tərzi görürük. Hesab edirəm ki, baş verən bu hadisələrə görə bütün məsuliyyət İranın üzərinə düşür. Azərbaycan bu halda heç bir məsuliyyət daşımır. İranın atdığı bu addımlar onların strateji dövlət maraqlarına da ziddir. BMT baş məclisində 193 dövlət təmsil olunur. İranın dünyadakı dostlarını saymaq üçün bir əlin beş barmağı kifayət edir. Bu qədər sanksiyaların altında qaldığı reallıqda Azərbaycan kimi sülhpərvər dövlətlə münasibətləri korlamağa dəyərmi? Azərbaycan heç bir zaman İrana qarşı beynəlxalq sanksiyalara qoşulmayıb. Heç bir zaman anti-İran proseslərində iştirakçı olmamışıq. 2006-cı ildə ABŞ tərəfindən İranın bombalanması məsələsi çox aktual idi. Azərbaycan ərazisindən istifadə etmək məsələsi də gündəmdə idi. Amma Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində heç bir zaman üçüncü dövlət Azərbaycan ərazisindən İrana qarşı hərbi təcavüz həyata keçirə bilmədi. Buna görə Qərbdən çoxsaylı təzyiqlər aldıq. İran tərəfi bunu unutmamalıdır. Azərbaycan dövləti İrana qarşı təzyiqlərin qarşısını alır, ərazisini vermir, buna etiraz edir, təzyiq altına düşür. Amma İran bizimlə düşmənçilik edir. Buna nə ad vermək olar? Hesab edirəm ki, bunun özü riyakarlıqdır, müsəlman həmrəyliyinə qarşı xəyanətdir.



***-Siz də İranın Azərbaycanla sərhəddə təlimlər keçirdiyini qeyd etdiz. Bu günlərdə İran ordusunun Naxçıvanla sərhəddə canlı qüvvə və silah-sursat topladığının görüntüləri yayılmışdı. Necə düşünürsüz, İran Azərbaycana qarşı hər hansı bir hərbi addım ata bilərmi?***

-Ən çox müzakirə olunan məsələlərdən biri də İran-Azərbaycan müharibəsi ola bilərmi sualıdır. Mənə elə gəlir ki, İran daha çox əzələ nümayiş etdirir. İran bizə xox gəlmək istəyir. Onlar yəqin fərqindədirlər ki, Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Bu gün ölkəmiz dünyanın 50 ən güclü dövləti sırasında yer alıb. Azərbaycan 5-ci nəsil silahlarla silahlanmış dövlətdir. Eyni zamanda, tarixi zəfərə imza atmışıq. Bu gün Azərbaycanın çox güclü müttəfiqləri var. Xüsusilə Türkiyəni qeyd etmək istərdim. Biz həm də hərbi müttəfiqik. Əgər, İran Azərbaycana hücum edərsə, belə olan halda Şuşa Bəyannaməsinə uyğun olaraq Türkiyə ilə də müharibə vəziyyətinə girmiş olur. Yəni, İran-Azərbaycan müharibəsi İran-Türkiyə müharibəsinə də çevrilir. Türkiyə NATO ölkəsidir və NATO ölkəsi müharibəyə cəlb olunubsa, digər NATO ölkələrinin də onun yanında yer alması təşkilatın nizamnaməsinin 5-ci maddəsinin tələbidir. Belə olan halda fikir verin ki, İranın Azərbaycana bir təcavüzü nəticə etibarı ilə NATO-İran müharibəsini labüd edə bilir. Bu isə dünya müharibəsinə gedib çıxa bilir. Onu da unutmayaq ki, ABŞ və İsrail hər bir zaman İrana qarşı güc tətbiqinə maraqlıdır. Amma Azərbaycan Prezidenti praqmatik bir siyasət həyata keçirir. Biz sülhpərvər dövlətik və heç kimlə müharibə istəmirik. Münaqişələrin dinc yolla tənzimlənməsini istəyirik. Bu, Azərbaycan dövlətinin qətiyyətli, prinsipial mövqeyidir. Əgər İran tərəfi Azərbaycana münasibətdə hərbi güc tətbiqini reallaşdırarsa, bu onlar üçün çox fəlakətli nəticələrə gətirib çıxara bilər. İran onu da unutmur ki, bu ölkənin vətəndaşı olan 35-40 milyonluq soydaşımız var. İkinci Qarabağ müharibəsində İrandan Ermənistana daşınan silahların qarşısının alınmasında onların hansı fədakarlığı göstərdiklərini də unutmayıblar. Sizcə, bu gün İran dövləti Azərbaycana təcavüz edəndə azərbaycanlıları silahlandırıb Azərbaycanamı göndərəcək? Bu, qeyri-mümkündür. Hesab edirəm ki, İran belə bir addım atsa, odla oynamış olur.

***-Martın 29-da Azərbaycanın İsraildə səfirliyi açıldı. Bundan sonra İran tərəfindən müəyyən fikirlər də səsləndirildi. Nə üçün Azərbaycanın İsraildə səfirlik açması İranı narahat etməlidir?***

-İranın bizim üçün düşmən dövlət olan Ermənistanın paytaxtında səfirliyi var. Bununla kifayətlənməyib Qafanda konsulluq açıblar. Bu necə ola bilir? Sizin düşmən ölkədə səfirliyiniz, konsulluğunuz ola bilir, Azərbaycan İsraildə bunu edə bilmir? Azərbaycan səfirlik açarkən bildirib ki, Azərbaycan-İsrail münasibətlərinin inkişafı heç bir halda üçüncü dövlətə qarşı deyil. Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursu müstəqildir, milli maraqlara söykənir və heç bir halda üçüncü tərəfə qarşı yönəlməyib. Yəni, Azərbaycan Prezidenti Moskva ilə münasibətləri inkişaf etdirərkən, Vaşinqtonda çox gözəl bilirlər ki, bu, ABŞ-ın əleyhinə deyil. Ona görə ki, Azərbaycan Prezidenti müxtəlif güc mərkəzləri ilə bərabər məsafədə dayanıb, qarşılıqlı və faydalı əməkdaşlıq münasibətləri qurub. Ona görə də İranın narahatlığı əbəsdir. İranın bu davranışı onu göstərdi ki, İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, yeni yaranmış reallıqlar, Azərbaycanın Zəngəzur dəhlizini işə salmaqla bağlı qətiyyətli mövqeyi İrandakı mollakratiyanın yuxusuna haram qatıb. Onlar ciddi cəhdlə çalışırlar ki, Azərbaycan üçün problemlər yaratsınlar. Bu məqsədlə terrorçu şəbəkələr qururlar, Azərbaycanın tanınmış ictimai-siyasi xadimlərinə qarşı terror əməlləri həyata keçirirlər. Bunu səfirliyimizə qarşı etdilər. Bunlar isə nəticə etibarı ilə İranın strateji baxımdan maraqlarına ziddir. İran taktiki baxımdan burada nə isə dividend götürmək istəyir, amma strateji baxımdan uduzur. İran unutmasın ki, Azərbaycan dövləti və onun ali siyasi rəhbərliyinin atdığı bütün addımlar nəticə etibarı ilə regionda sülhün, təhlükəsizliyin təminatına yönəlib. İranda bizim 35-40 milyonluq soydaşımız yaşayır. Onların təhlükəsizlik məsələləri də bizim üçün önəmlidir.

***Anar Kəlbiyev***

# Anar Kərimovun daha bir kadrı çətin durumda

## Nazir əvəzi nə üçün Vüsal Hüseynovu vəzifədən uzaqlaşdırıb? - Sensasion təfərrüatlar...



***Mədəniyyət Nazirliyində kadr islahatları davam edir. Bu dəfə Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov vəzifəsindən azad olunub.***

Yola salmaq üzrə olduğumuz həftə mədəniyyət nazirinin birinci müavini, nazir səlahiyyətlərini icra edən Adil Kərimli bu barədə əmr imzalayıb.

Mədəniyyət Nazirliyindən faktı təsdiqləyiblər.

Qeyd edək ki, V.Hüseynova şiddətli töhmət verilmişdi.

Bəs bunun səbəbi nə olub?

"Unikal"ın əldə etdiyi məlumata görə, Xaçmaz Regional Mədəniyyət İdarəsinin fəaliyyətində ciddi nöqsanlar aşkarlanıb. Nəticədə idarənin rəisi Vüsal Hüseynov təxminən bir ay öncə sonuncu xəbərdarlıqla şiddətli töhmət alıb. "Belə görünür ki, rəis bundan nəticə çıxarmaq əvəzinə, "köhnə hamam köhnə tas" prinsipi ilə işləməyə davam edib. Nəticədə nazir əvəzi onun vəzifədən kənarlaşdırılmasını daha məqsədəuyğun sayıb" deyə qəzetimizə daxil olan məlumatda vurğulanır.

İddialara görə, Vüsal Hüseynovu Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi postuna təxminən 3 il öncə, dəqiqləşdirməli olsaq, 2021-ci ilin martında Gənclər və İdman Nazirliyinin ovaxtkı sektor müdiri Kənan Kərimov təyin etdiribmiş. Kənan Kərimov isə sabiq mədəniyyət naziri Anar Kərimovun əmisi oğludur.

Yeri gəlmişkən, V.Hüseynovun özü isə Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi təyin olunanadək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Müdafiə Fondunun Quba Rayon Şöbəsinin rəisi vəzifəsində işləyib. Onunla K.Kərimov arasında hansı bağların olduğu, hansı münasibətlər səbəbilə sektor müdirini sabiq rəisi sözügedən posta gətirtdiyinə dair bilgi yoxdir.

O da iddia edilir ki, rəis postunda çalışarkən keçmiş nazirlə yaxınlığını hər yerdə dilə gətirən V.Hüseynov kimsədən çəkinmədiyini bildirirmiş və istədiyi kimi rəftar edirmiş. Bu isə həm Xaçmaz Regional Mədəniyyət İdarəsi daxilində, həm də şimal bölgəsinin mədəniyyət müəssisələrinin məsul şəxsləri arasında narazılıq doğururmuş. Lakin eks-rəisin qəzəbinə uğramaqdan çəkindikləri üçün əksəriyyət susmağa üstünlük verirmiş.

Anar Kərimovun kadrı olan V.Hüseynovla bağlı mediada da bir çox qalmaqallı xəbərlər yer alıb. Məsələn, 2021-ci ildə Xaçmaz Regional Mədəniyyət İdarəsi rəisinin bir qrup əməkdaşı işdən çıxardığına dair məlumat yayılıb. İddialara görə, buna səbəb həmin işçilərin V.Hüseynovun anasının yas mərasiminə getməməsi olub. Maraqlısı odur ki, rəisin işdən çıxarılmaması üçün bu əməkdaşların hər birindən 2-3 min manat tələb etdiyi də iddia olunub. Ən maraqlısı isə başqadır - bu hadisə baş verərkən COVİD-19 səbəbilə ölkədə xüsusi karantin rejimi tətbiq olunmuşdu, kütləvi tədbirlər, o cümlədən yas mərasimlərinin təşkili yasaqlanmışdı...

Sabiq idarə rəisi özü barəsindəki bu iddiaya reksiya verməyib - yayılan məlumatı təsdiqləməsə belə, təkzib də etməyib.

Yeni iddialardan biri isə bundan ibarətdir ki, V.Hüseynovun rəis olduğu dövrdə Xaçmaz Regional Mədəniyyət İdarəsinin fəaliyyətində ciddi mənimsəmələrə yol verilib. Bununla bağlı araşdırmalara başlanıldığı deyilir, həmçinin sabiq rəsin hüquqi məsuliyyətə cəlb olunması istisna edilmir.

Onu da deyək ki, araşdırmalarımız zamanı keçmiş nazir Anar Kərimovun regional mədəniyyət idarələrinə bir qayda olaraq mədəniyyət sahəsinə yad şəxsləri rəis təyin etdirdiyini ortaya qoyub. Məsələn, bu ilin əvvəllərində nazir əvəzi Adil Kərimli Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətovu da vəzifəsindən uzaqlaşdırmışdı. Qəzetimizin həmin vaxt əldə etdiyi məlumatda bildirilirdi ki, bu posta təyin olunanadək Cənnətovun mədəniyyət sahəsində hər hansı iş təcrübəsi olmayıb. Belə ki, 1985-ci ildə Gəncə şəhərində anadan olan 38 yaşlı eks-rəis 2006-cı ildə Rusiyanın Maliyyə və Hüquq İnstitutunu "Hüquqşünas", 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasları üzrə bitirib. Əmək fəaliyyətinə isə 2007-ci ildə hüquqşünas kimi başlayıb. 2011-2018-ci illərdə Əmlak Məsələləri Dövlət Komitəsi sistemində müxtəlif vəzifələrdə çalışıb. Son təyinatadək isə Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 3 saylı Gəncə Ərazi İdarəsinin Samux rayon şöbəsində şöbə müdiri vəzifəsində işləyib. Bu əmək fəaliyyəti müqabilində onun ölkənin ikinci iri şəhərini də əhatə edən böyük bir regionun mədəniyyət sahəsinə rəhbər təyin edilməsi təəccüblə qarşılanıb. Xüsusilə yerli sənət, mədəniyyət adamları üçün Cənnətovun təyinatı gözlənilməz olub.

Lakin görünən odur ki, sabiq nazir üçün kadr seçiminin başqa şərtləri (!) varmış. Belə olmasaydı, şimal bölgəsini əhatə edən regional idarəyə də Dövlət Sosial Müdafiə Fondunun Quba Rayon Şöbəsinin rəisi işləmiş birini təyin etməzdi...

Anar Kərimovun ilginc kadr seçimləri ilə bağlı başqa maraqlı nümunələr də var, bu isə ayrı mövzu olduğundan həmin nümunələr barədə növbəti saylarımızdan birində xüsusi bəhs edəcəyik.

***Toğrul Əliyev***

# Komitə sədrindən Hacı Şahinin yerinə təyinatla bağlı açıqlama



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Məşədi Dadaş məscidinə imamın təyin edilməsi ilə bağlı məsələyə aydınlıq gətirib.***

"Unikal"ın məlumatına görə, M.Qurbanlı deyib ki, Məşədi Dadaş məscidinin imamı Hacı Şahin Həsənlinin vəfatından sonra İlahiyyat İnstitutunun tələbəsi Elmir Vəliyev məsciddə dini ayinləri, Cümə namazlarını icra edir.

"Biz bunu Məşədi Dadaş məscidinin icması ilə də müzakirə etmişik. Ənənəvi olaraq 40 mərasimindən sonra məscidə din xadimləri təyin olunacaq. Əminəm ki, Elmir də orada fəaliyyətini davam etdirəcək", - deyə M.Qurbanlı bildirib.

Keçmiş Əbu Bəkir məscidinin açılması məsələsinə münasibət bildirən M.Qurbanlı qeyd edib ki, məsciddə təmir işləri Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilir və məscidin yaxın zamanlarda açılışının olması gözlənilləndir.

# Komitə sədri Kanadada görüşlər keçirib

***Kanadaya səfər çərçivəsində Kanadaya səfər çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Xarici İşlər Nazirliyinin (XİN) parlament katibi Robert Olifantla görüşü keçirilib.***




Azərbaycan dövlətinin diaspor siyasəti, Komitənin fəaliyyət istiqamətləri, dünyanın 70-dən çox ölkəsində 50 milyona yaxın azərbaycanlının yaşaması, Azərbaycan Prezidentinin tövsiyələri əsasında xaricdəki icmalarımızla, o cümlədən Kanadada yaşayan soydaşlarımızla sıx əlaqə saxlanılması, onların təşkilatlanması istiqamətində atılan addımlar və həyata keçirilən layihələr XİN parlament katibinin nəzərinə çatdırılıb.

Cənubi Qafqazın lider dövləti olan müasir Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğu, azad olunmuş torpaqlarımızda irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, xalqımızın bölgədə yalnız davamlı sülhün bərqərar olmasını istədiyi və Azərbaycan dövlətinin bu istiqamətdə ciddi səylər göstərdiyi vurğulanıb.

Robert Olifant Azərbaycan diasporunun Kanada cəmiyyətinə inteqrasiyasını yüksək qiymətləndirib. Kanada dövlətinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü dəstəklədiyini söyləyən XİN parlament katibi icmamızın tarixi vətənlərinin imicinin yüksəldilməsi və mədəniyyətinin tanıdılması istiqamətində Kanadada gördüyü işləri müsbət qiymətləndirib.

Komitə sədri Kanada-Azərbaycan ikitərəfli münasibətlərinin daha da inkişaf edəcəyinə ümid etdiyini bildirib.

"Peys Hüquq Firması"nın ("Pace Law Firm") təsisçisi və rəhbəri Al Peyslə görüşdə isə şirkətin hüquqi xidmətləri barədə ətraflı məlumat verilib və fəaliyyətinə dair təqdimat keçirilib. 1981-ci ildə əsası qoyulan şirkətin beş ofisində 160-dan çox hüquqşünasın çalışdığı və müştərilərə 38 dildə xidmət göstərdiyi vurğulanıb.

Al Peys qeyd edib ki, özü əslən Litvadan olduğu üçün litov icmasının fəaliyyətində iştirak edir və rəhbərlik etdiyi şirkət litov gənclərinin startap layihələrini təmənnasız olaraq dəstəkləyir.

Komitə sədri ölkəmizin inkişafı, diaspor quruculuğu və Azərbaycan icma üzvlərinin yerli cəmiyyətə inteqrasiyası ilə bağlı həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib. Azərbaycan diasporu üzvlərinin müxtəlif ölkələrdə, o cümlədən Kanadada biznes sahəsində çalışdıqlarına, xarici ölkələrin iqtisadiyyatına töhfələr verdiklərinə diqqət cəlb olunub. İnteqrasiya sahəsində soydaşlarımızın qarşılaşdıqları hüquqi çətinliklərin aradan qaldırılması yolları və əməkdaşlıq perspektivləri müzakirə edilib.



# DTX Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbir keçirib

***Göyçayda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir keçirilib.***

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, "Heydər Əliyev və təhlükəsizlik orqanları" adlı tədbirdə Göyçay rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, DTX-nin rəhbər şəxsləri və əməkdaşları, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri, Milli Məclisin deputatları, təhlükəsizlik orqanlarının veteranları, Vətən müharibəsi iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

N.Ağayev Heydər Əliyevin təhlükəsizlik orqanlarından başlayan ömrünün tarix olduğunu vurğulayıb: "Dahi şəxsiyyət Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycanın çiçəklənməsi və qüdrətlənməsi yolunda işlər görüb. Respublikamızın təhlükəsizliyinin və ərazi bütövlüyünün etibarlı qorunması, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşaması naminə fədakarlıq göstərib. Hazırda Ulu Öndərin siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı tərəqqi edir".

Tədbirin digər çıxışçıları H.Əliyevin təhlükəsizlik orqanlarının tarixində ilk azərbaycanlı general olaraq təsisatın inkişafına misilsiz töhfələr verdiyini, milli kadrlarla komplektləşdirdiyini, Azərbaycana rəhbərlik etdiyi vaxtlarda da təhlükəsizlik qurumunun fəaliyyətini daim diqqət mərkəzində saxladığını vurğulayıb. Bu gün Azərbaycan xüsusi xidmət orqanlarının öz işini məhz Heydər Əliyevin vaxtilə təhlükəsizlik təşkilatında təməlini qoyduğu prinsiplər əsasında qurduğunu nəzərə çatdırıblar.

Sonda tədbir iştirakçıları Ulu Öndərin təhlükəsizlik orqanlarında xidmət etdiyi zaman onun rəhbərliyi altında keçirilmiş "Port-Pəhləvi" əməliyyatından bəhs edən sənədli filmə tamaşa ediblər.

# Seçici siyahıları MSK-ya təqdim edildi



***Dairə seçki komissiyalarının müvafiq seçki dairələri üzrə ilkin seçici siyahılarını Mərkəzi Seçki Komissiyasına təhvil vermək üçün ayrılan müddət başa çatıb.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, seçki qanunvericiliyinə əsasən, yanvar ayının əvvəllərindən etibarən Azərbaycan Respublikası üzrə vahid seçicilər siyahısının tərtib olunması prosesinə başlanılıb.

Vahid seçicilər siyahısının tərtib edilməsi ilkin olaraq məntəqə seçki komissiyaları tərəfindən aparılıb.

Bu proses məntəqə seçki komissiyaları tərəfindən qanunla nəzərdə tutulmuş müddətdə seçki məntəqələrinin hüdudlarında həyata keçirilib. Seçki Məcəlləsinin tələblərinə əsasən, məntəqə seçki komissiyaları məntəqə üzrə tərtib edilmiş seçici siyahılarını fevralın 5-dən gec olmayaraq müvafiq dairə seçki komissiyalarına təqdim edilib.

Qanunvericiliyə əsasən, dairə seçki komissiyaları isə müvafiq seçki dairələri üzrə ilkin seçici siyahılarını aprelin 5-dək MSK-ya təhvil verməlidir. MSK da öz növbəsində vahid seçicilər siyahısının ölkə üzrə tərtib edilməsini həyata keçirəcək.

Bu prosesə ən gec may ayının sonuna qədər yekun vurulacaq və ölkə üzrə yenidən tərtib olunmuş vahid seçicilər siyahısı MSK-nın rəsmi internet səhifəsində yerləşdiriləcək.

# Ziya Məmmədovun havaya sovurduğu milyonlarla bağlı yeni qalmaqal

## Hökumət sabiq nazirin puç elədiyi iş üçün yenidən pul xərcləmək məcburiyyətində qaldı



***Paytaxtda və ətraf ərazilərdə tıxaclar getdikcə artmaqdadır. Sanki mənzərə yaranır ki, nəqliyyat sistemi idarəolunmaz vəziyyətə gəlib. Bəs hökumətin bununla bağlı hansı tədbirləri var?***

Yola saldığımız həftə mövzu ilə bağlı danışan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirdi ki, iqtisadi aktivliyin, həmçinin əhalinin nəqliyyat ehtiyaclarının artması bütün dünyada, xüsusən iri şəhərlərdə və iqtisadi mərkəzlərdə tıxac probleminin yaranmasına səbəb olur: "Bu səbəbdən şəhər ərazisində və şəhərin giriş-çıxış yollarında ilbəil artan sıxlıq müşahidə olunur. Bakı şəhəri daxil olmaqla Abşeron yarımadasında yaşayan əhalinin sıxlığı və onların mobilliyinin təmin edilməsi nəzərə alınaraq, inteqrasiya olunmuş nəqliyyat sisteminin qurulmasına ehtiyac var. İctimai nəqliyyatın tənzimlənməsi üçün elə bir dayanıqlı model qurulmalıdır ki, həm sərnişinlərin tələbatı ödənilsin, həm daşıyıcıların maraqları qorunsun, həm də göstərilən xidmətlərin keyfiyyəti və qiyməti əhali üçün uyğun olsun".

Nazir müavininin dedikləri ilə razılaşmamaq mümkün deyil. Lakin bu zaman başqa bir sual yaranır: elə isə illər öncə külli miqdarda dövlət vəsaitinin xərclənməsi hesabına başa gələn Nəqliyyatın İntellektual İdarətmə Mərkəzi (NİİM) necə olsun? Axı bu layihə də məhz Rəhman müəllimin barəsində bəhs etdiyi problemlərin köklü həlli üçün nəzərdə tutulmuşdu. Həmin vaxt bildirilirdi ki, müasir şəhərin uğurlu və dinamik inkişafı üçün onun tələbatına uyğun nəqliyyat sisteminin olması vacibdir. Belə nəqliyyat sistemi şəhərin sərnişin və yük daşımaları tələbatından bir addım öndə olmalıdır. Beynəlxalq təcrübədə şəhər yollarının həddindən artıq yüklənməsi problemi yolların sıxlığını artırmadan yol hərəkətini və şəhər sərnişin nəqliyyatını müvafiq küçə-yol şəbəkəsində effektiv surətdə idarə edə bilən intellektual nəqliyyat sistemləri (İNS) texnologiyalarının tətbiqi hesabına həll olunur. (Xatırlatma: İNS - yol hərəkətinin idarə edilməsi, bütün nəqliyyat növlərinin (fərdi, ictimai, yük) işinin monitorinqi və idarə edilməsi, region ərazisində nəqliyyat xidmətinin təşkili haqqında vətəndaşların və müəssisələrin məlumatlandırılması məsələlərini həll edən qarşılıqlı əlaqəli avtomatlaşdırılmış sistemlər kompleksidir).

Nəticədə?

Nəticə - sıfır.

NİİM faktiki olaraq iflasa uğradı. Arada isə dövlət büdcəsinin milyonlarla manatı havaya sovrulmuş oldu.

Və bu gün rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini paytaxtda, eləcə də ətraf ərazilərdə nəqliyyatın nizamlanması ilə bağlı yeni modelin tətbiqindən danışır. Sitat: "Hazırda qeyd etdiyiniz məsələnin həlli ilə bağlı aparıcı beynəlxalq konsaltinq şirkətləri cəlb olunmaqla ictimai nəqliyyatın idarə edilməsi və mobillik modeli hazırlanır. Modelin məqsədi ictimai nəqliyyatda əlçatanlığın artırılması, şəhərin daxilində mobillik sürətinin artırılması, tıxacların aradan qaldırılması və atmosferə atılan tullantıların azaldılmasıdır. Model çərçivəsində Bakının "rəqəmsal əkizi" yaradılacaq ki, bu da qərarların elmi-praktiki əsaslandırılmasını təmin edəcək..."

Maraqlıdır, yuxarıdakı sətirləri oxuyan sabiq nəqliyyat naziri Ziya Məmmədov, görəsən, nə düşünür? Məsələ ondadır ki, bu gün "yaralı barmağa dərman olmadığı" açıq şəkildə gün işığına çıxan məlum layihənin - NİİM projesinin "memarı" məhz Ziya müəllim idi.

Unudanların yadına salaq: sözügedən layihəyə 100 milyon manatdan çox pul xərcləndi, ancaq həmin layihə də fiasko ilə nəticələndi - faktiki olaraq işləmədi, paytaxtın nəqliyyat dərdinə zərrəcə dərman olmadı. Arada büdcənin pulları havaya sovrulmuş oldu.

İndi isə paytaxt nəqliyyatını nizama salmaq üçün yeni modelin zəruriliyindən, bu istiqamətdə hazırlıqdan, xarici mütəxəssislərin prosesə cəlb olunmasından danışılır.

Bəs Ziya müəllim hardadır? Öz dediyinə inansaq, dolanışıq üçün mal-qoyun saxlayır, ot-ələf əkir, hə bir də, mənəvi dinclik tapmaq üçün ibadətlə məşğuldur. Sabiq nazirin dinə meyllənməsinə sözümüz yoxdur, ümid edirik ki, ibadətlə məşğul olduqda dövlətin pulunu, millətin malını israf etməyin, havaya sovurmağın, buna müqabil, özünə, ailə üzvlərinə misli görünməmiş dərəcədə vardövlət yığmağın, biznes imperiyası qurmağın da günah olduğunu, haram olduğunu anlayar...

Ən vacib məqam isə başqadır: dövlətin 100 milyon manatı bir işə xərclənir, lakin axırda həmin işin əslində heç bir işə yaramadığı ortaya çıxırsa, yeni modelə, deməli, yeni xərcə ehtiyac yarandığı məlum olursa, əlaqədar qurumlar hərəkətə keçməli, həmin 100 milyon manatın hesabını hüquq müstəvisində soruşmalı deyilmi?!

***Sənan Mirzə***

# Özəl klinikalarda daha bir soyğunçuluq

## Keysəriyyə əməliyyatlarının qiymətləri adamın qanını dondurur

***Azərbaycanda özəl klinikaların anormal qiymət siyasəti ilə bağlı xəbərlərin ardı-arası kəsilmir. Bu dəfə sosial şəbəkələrdə ana olmuş qadınlar arasında gedən müzakirələrdə özəl xəstəxanalarda təbii doğuş və keysəriyyə qiymətləri xeyli marağa səbəb olub.***

Yerli media, daha dəqiq desək, "teleqraf.com" qiymətlərin dəqiqliyini yoxlamaq üçün paytaxtda fəaliyyət göstərən həmin özəl xəstəxanalarla əlaqə saxlayıb. Həmin tibb müəssisələrindən gələn cavablar isə sözün həqiq mənasında şokedicidir. Məsələn, məlum olub ki, "Caspian International Hospital"da qiymətləri həkim özü müəyyən edir. Müəssisədən əldə etdiyimiz məlumata görə, keysəriyyə 1 000 manatdan aşağı deyil. "German Hospital" və "Oksigen Klinikası"nda da qiymətlər eyni sistem üzrə müəyyən olunur.

Ümumiyyətlə isə belə aydınlaşıb ki, özəl klinikalar doğuş paketi haqqında məlumat açıqlamaqdan boyun qaçırıb.

Lakin gənc anaların paylaşdığı məlumatlara inansaq, özəl klinikalarda təbii doğuş və keysəriyyə qiymətlərini təqdim edirik:

"Baku Medical Plaza": təbii doğuş 1200 AZN, keysəriyyə 1400 AZN.

"İnternational Medical Centre": təbii doğuş 750 AZN, keysəriyyə 1050 AZN.

"Caspian International Hospital": təbii doğuş 1000 AZN, keysəriyyə 1200 AZN.

"German Hospital": təbii doğuş 900 AZN, keysəriyyə 1200 AZN.

"Oksigen Klinikası": təbii doğuş 1000 AZN, keysəriyyə 1300 AZN.

"Liv Bona Dea Hospital": təbii doğuş 1800 AZN, keysəriyyə 2500-3000 AZN.

Digər özəl xəstəxanalarla müqayisədə "Liv Bona Dea Hospital"da isə doğuş qiymətləri fantastik yüksək göstərilir. Bunun səbəbi ilə bağlı hospitaldan bildirilib ki, keysəriyyə əməliyyatı üçün qiymət göstərildiyi kimi 2500-3000 AZN yox, 1950 manatdır. Qiymət paketdə qeyd edilən xidmətlərin qarşılığında müəyyənləşir.

Məlumat üçün qeyd edək ki, özəl xəstəxanalarda tibbi yardıma görə ödəniş "Özəl tibb fəaliyyəti haqqında" Qanunun 13-cü maddəsi ilə tənzimlənir.



Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərin göstərdiyi tibbi yardıma görə ödəniş bilavasitə xəstələrlə bağlanmış müqavilələr əsasında həyata keçirilir. Lakin ortada başqa bir ilginc nüans var: klinikaların fantastik qiymət cədvəlinə nəzarət olmalıdırmı? Düzdür, bəzi ekspertlərin fikrincə, özəl tibb müəssisələri tibbi təyinatlı kommersiya müəssisələrdir. Odur ki onların qiymət siyasətinə müdaxilə düzgün deyil.

Bununla belə, əksini düşünənlər də var. Onlar hesab edirlər ki, Azərbaycandakı özəl klinikalarda müayinə, müalicə və digər xidmət qiymətlərinin yüksək olmasının iqtisadi əsası yoxdur. "Ölkədə dərman preparatlarının qiyməti tənzimlənsə də, özəl tibb sektorunda xidmətlərin qiyməti tənzimlənmir. Üstəlik, süni qiymət artımı qanunvericiliklə qadağan olunsa da, özəl klinikalar buna əməl etmirlər. Həmçinin, Rəqabət Məcəlləsinin qəbul edilməməsi, sağlam rəqabət mühitinin tam formalaşmaması da öz sözünü deyir. Ona görə də özəl klinikalarda monitorinqlərin keçirilməsinə ciddi ehtiyac var. Süni qiymətlərin tətbiq olunduğu klinikalarda qiymətlərin aşağı salınması istiqamətində, ən azından, tövsiyə xarakterli tədbirlərin həyata keçirilməsi vacibdir. Nəzərə almaq lazımdır ki, özəl klinikalarda qiymətlərin baha olması səbəbindən vətəndaşlar bundan istifadə edə bilmirlər. Bir sıra hallarda vətəndaşlar hətta analiz vermək üçün də borclanmağa məcbur olurlar. Bir sözlə, özəl klinikalarda qiymətlərin optimallaşdırılması istiqamətində addımların atılmasına, ümumiyyətlə isə bu tibb müəssisələri ilə bağlı neqativ rəylər fonunda real mənzərəni ortaya qoymaq üçün obyektiv yoxlamaların aparılmasına ehtiyac var" - deyə "Unikal"ın əməkdaşı ilə söhbətində adının çəkilməsini istəməyən mütəxəssis bildirib.

Mütəxəssis təəssüflə vurğulayıb ki, ölkədəki özəl klinikaların əksəriyyəti nüfuzlu məmurların, vəzifə sahiblərinin qeyri-rəsmi nəzarətində, himayəsində olduğundan onlar özlərini "toxunulmaz" hesab edir, yüksək qiymətlər və bunun fonunda aşağı xidmət məsələsinə görə qətiyyən narahatlıq keçirmirlər. "Məhz bu məmur himayəçiliyinin nəticəsidir ki, özəl tibb müəssisələrinin cəmiyyətdəki, mediadakı narahatlıqlara, narazılıqlara dırnaqarası münasibətinin şahidi oluruq. Fikirləşirlər ki, hər hansı neqativliyə görə onlara "gözün üstə qaşın var" deyən olmayacaq. Düzdür, bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Lakin bu o demək deyil ki, hərə öz ağlına görə müəyyənləşdirsin. İstənilən qiymət iqtisadi əsasa dayanmalıdır. Əks təqdirdə, bu, rəqabətsizlikdən doğan soyğunçuluqdur" deyə həmsöhbətimiz fikirlərini tamamlayıb.

Beləliklə: özəl klinikalarla bağlı, az qala, "həftə səkkiz, mən doqquz" yeni tükürpədici qiymətlər ortaya çıxır, cəmiyyətdə ciddi müzakirələrə, ən əsası, mübahisələrə gətirib çıxarır. Ortaq fikir isə bəllidir: sözügedən tibb müəssisələri üzərində qanunvericiliyin tələbləri daxilində nəzarətin gücləndirilməsi və mütəmadi yoxlamaların aparılması qaçılmazdır. Əks halda özəl klinikaların qiymətləri qan dondurmağa davam edəcək...

***Toğrul Əliyev***

# Azərbaycanda gömrük generalına qarşı dələduzluq



***Dövlət Gömrük Komitəsinin Aksizli mallar üzrə Baş Gömrük İdarəsinin rəisi, general Vəzir Həsənov və bacanağı İnqilab Əliyevə qarşı dələduzluq edilib.***

Külli miqdar təşkil edən dələduzluğa görə Vladimir Müslümov ittiham olunur.

İttihama görə, Vladimir Müslümov özünü tikinti fəaliyyəti ilə məşğul olan iş adamı kimi təqdim edərək zərərçəkmiş şəxslərə ucuz qiymətə ev satacağını vəd verib. Razılaşmaya əsasən, Vəzir Həsənov dördotaqlı ev almaq üçün 391 min 754 manat verib. Vladimir Müslümov isə pulu aldıqdan sonra vədinə əməl etməyib.

General və bacanağının şikayəti əsasında Vladimir Müslümov həbs olunub.

Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq - külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Hazırda iş Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azad Məcidovun sədrliyi ilə araşdırılır.

Baxış iclasında zərərçəkmiş general Vəzir Həsənov ifadə verib.

General deyib ki, təqsirləndirilən şəxsi Şahin adlı tanışı vasitəsilə tanıyıb, əvvəllər ədavəti olmayıb:

"Vladimirlə evimin həyətində görüşdüm. Dedi, Səbail rayonunda bina tikir, sərfəli qiymətlə mənə mənzil sata bilər. Dördotaqlı ev almaq üçün 391 min 754 manat verdim. Pulu götürüb getdi, ancaq vədinə əməl etmədi".

İttiham aktına görə, Vladimir Müslümov generalın bacanağı İnqilab Əliyevə qarşı da dələduzluq edib.

Zərərçəkmiş şəxslər onlara dəymiş ziyanın ödənilməsini tələb edirlər.

Qeyd edək ki, Vəzir Həsənov 2022-ci ildən Dövlət Gömrük Komitəsinin Aksizli mallar üzrə Baş Gömrük İdarəsinin rəisidir.

O, əvvəllər Tovuz Gömrük İdarəsinin və Sumqayıt Gömrük İdarəsinin rəisi olub. /Lent.az

# Təbiətə 94 min manat ziyan vuruldu



***Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində respublika tabeli şəhər və rayonlarda qanunsuz ağackəsmə faktları ilə bağlı araşdırma aparılıb.***

"Unikal" xəbər verir ki, araşdırmalar zamanı Ağsu, Samux və Bakı şəhərinin Səbail rayonu, həmçinin Sumqayıt şəhəri ərazisində meşə fonduna daxil olmayan, ümumilikdə 900 ədəd ağac və kolların qanunsuz kəsilməsi nəticəsində təbiətə 94 min manatdan çox ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən faktlarla bağlı Cinayət Məcəlləsinin 259.1, 259.2.3 və 259.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla, qulluq mövqeyindən istifadə etməklə və külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) maddələri ilə cinayət işləri başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilib.

# Bakı-Şamaxı yolunda sürət həddi endirildi




***Bakı-Şamaxı yolunda (Bakı şəhərinin inzibati ərazisinə düşən hissəsi) müvafiq yol nişanları quraşdırılaraq maksimum sürət həddi 70 km/saatdan 60 km/saat-a endirilib.***

Bakı Nəqliyyat Agentliyindən (BNA) "Unikal"a verilən məlumata görə, bu dəyişiklik yol hərəkəti təhlükəsizliyi səviyyəsini qaldırmaqla bərabər, sürücülərdə çaşqınlıq yaranmamasına və lüzumsuz cərimələrdən yayınmalarına səbəb olacaq.

Agentlik sürücülərdən yol nişanlarının tələbinə uyğun olaraq tətbiq edilən yeni sürət həddinə riayət etmələrini xahiş edirik.



# Dövlət qurumlarında boş olan rəhbər vəzifələr müsahibəyə çıxarılıb

***Bu gündən dövlət qurumlarında boş olan rəhbər vəzifələr müsahibəyə çıxarılıb.***

Dövlət İmtahan Mərkəzindən ”Unikal”a verilən məlumata görə, Hesablama Palatası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Qida Təhlükəsizliyi Agentliyində inzibati vəzifələrin 1-4-cü təsnifatına uyğun olan dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) aid 7 inzibati vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.

Daxili müsahibəyə çıxarılan vəzifələr arasında ən yüksək vəzifə inzibati vəzifələrin 1-ci təsnifatına uyğun olan Hesablama Palatası Aparatının rəhbəri vəzifəsidir.

Ümumilikdə isə Hesablama Palatasında 2, Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində 2 və Qida Təhlükəsizliyi Agentliyində 1 vakant inzibati vəzifə daxili müsahibə elanına çıxarılmışdır.

Qanunvericiliyin tələblərinə uyğun olaraq, daxili müsahibə üzrə sənəd qəbulu elektron qaydada həyata keçirilir. Daxili müsahibə üzrə sənəd qəbulunun elektron qaydada həyata keçirilməsi vətəndaşların rahatlığının təmin edilməsi, vaxt itkisinin və maliyyə xərclərinin qarşısının alınması, habelə Mərkəz tərəfindən göstərilən dövlət xidmətlərinin daha əlçatan olmasına imkan verir.

Daxili müsahibədə vəzifələrin tutulması şərtlərinə uyğun olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Daxili müsahibədə iştirak etmək istəyən namizədlər 6 apreldən 20 aprel saat 18:00-dək Mərkəzin internet portalında “Dövlət qulluğu üzrə müraciət Forması”nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.

# Bəzi mahnılar qadağan olunsun! - TƏKLİF

***“Bu gün internet resurslarında təbliğ olunan bəzi bayağı mahnılar Azərbaycanın böyüməkdə olan nəslinə çox böyük ziyan vurur”.***



”Unikal” xəbər verir ki, bunu Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, bu mahnıların yayımlanmasının qarşısı alınmalıdır.

S.Əliyeva söyləyib ki, ən vacib məsələ isə televiziya və radiolarda bu kimi mahnıların səsləndirilməsi və onları ifa edənlərin efirə çıxarılması qadağan olunmalıdır.

# Xalqının qəlbində və tarixin yaddaşında əbədiyaşar lider - Heydər Əliyev

***2023-cü il müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinə təkan verən Heydər Əlirza oğlu Əliyevin anadan olmasının yüzüncü ildönümüdür.***

Hər şeydən öncə qeyd etməliyik ki, dahi şəxsiyyətin titanik fəaliyyəti nəticəsində Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrilmişdi. Amma hər zaman olduğu kimi, məqamı gələndə siyasi iradə və prinsipiallığı ilə mövqeyini ortaya qoyurdu. O, 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verdi. Bu vəziyyətdən istifadə edən ermənilər ölkəmizə qarşı uydurma ərazi iddiaları irəli sürərək əzəli torpağımız olan Qarabağ ətrafında hərbi təcavüzə başladı. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda və ya Sovet rəhbərliyində olsaydı, heç vaxt Qarabağ kimi problem meydana çıxmazdı. Heydər Əliyevin siyasi arenalarda olan gücü, zəhmi erməni millətçilərini belə təxribatlardan çəkindirirdi.



1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana olan qərəzli münasibətinə qarşı keçirilən dinc etirazlar, Bakıya sovet ordusunun yeridilməsi və misli görünməmiş qanlı faciənin törədilməsi ilə nəticələndi. 20 Yanvar faciəsindən bir gün sonra Moskvada Azərbaycanın Daimi nümayəndəliyinə gələrək, xalqının ağır günündə onun yanında olduğunu nümayiş etdirən Ulu Öndərin bu addımı bütün dünyanı sözügedən faciədən xəbərdar etdi. Əslində, bu, Azərbaycanın milli dövlətçilik prinsiplərinin elan olunması və hədəflərinin göstərilməsi idi.

Həmin dövrdə Azərbaycana qayıdışına ciddi maneələr törədilməsinə baxmayaraq, Vətənin ağır günlərinə biganə qala bilməyən Heydər Əliyev Azərbaycana qayıtdı. Xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Lider, Bakıdan Naxçıvana getdi və yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi. O, Naxçıvana gələr-gəlməz dərhal Naxçıvan MR Ali Sovetində Azərbaycanın bugünkü və eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətində 1918-1920-ci illərdə ilk dəfə elan olunaraq dalğalanmış tarixi üçrəngli bayrağımızı, məhz, xüsusi qərarla Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin binası üzərində ucaltdı.

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, həmçinin Muxtar Respublikanın adından “sovet sosialist” sözləri çıxarıldı, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, eləcə də SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı. İlk dəfə olaraq Sovet ordusu Muxtar Respublikadan çıxarıldı. Bu addımlar özü xalqın milli azadlıq hərəkatına yeni keyfiyyət, yeni ruh gətirdi.

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi nəticəsində ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürdü və Azərbaycanın odövrkü rəhbərliyi Heydər Əliyevi Bakıya dəvət etməli oldu. Bu zaman Volterin “dövlətin xilası üçün bir dahi insan kifayətdir” kəlamı yada düşür. Xalqımızın xilaskarı olan Heydər Əliyev Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan xilas etməyi bacardı.

Ümummilli Lider 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də keçirilən səsvermə nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. Həmin vaxtdan başlayaraq 1998-ci ilə qədər Heydər Əliyevin Azərbaycanda birinci prezidentliyi dövrü oldu. Bu dövr ərzində Heydər Əliyev Azərbaycana misilsiz töhfələr verdi, Respublikanın ilk Konstitusiyası qəbul olundu. ”Məhkəmələr və hakimlər haqqında” yeni qanun qəbul olundu və məhkəmə islahatlarına dair proqram xarakterli fərman imzalandı. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının, Şərqdə ilk dəfə Azərbaycanda ölüm cəzasının, senzuranın ləğvi bu illər ərzində qüvvəyə mindi. Vətəndaş, söz və fikir azadlığı haqqında fərmanlar imzalandı.

Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ulu öndər Əliyevin prezidentliyi dövründə MDB, GUAM, ATƏT kimi bir sıra beynəlxalq və regional təşkilatlarla ilk dəfə əməkdaşlıq edilərək münasibətlər quruldu. Həmçinin, Neft strategiyasında yeniliklərə imza atıldı ki, bunlardan da ən böyüyü 1994-cü ilin sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış ”Əsrin müqaviləsidir”. Bundan başqa, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tblisi-Ərzurum qaz kəmərlərinin ixracı haqqında imzalanan sazişləri də unutmaq olmaz.

Mərhum prezidentimizin xüsusilə diqqət yetirdiyi məsələlərdən biri də Qarabağın işğalı məsələsi idi. Onun beynəlxalq səviyyədə keçirdiyi görüşlərdə Qarabağ münaqişəsi əsas mövzulardan biri idi. Heydər Əliyevin sayəsində Qarabağ münaqişəsinin həqiqi mahiyyəti dünya ictimaiyyətinə məlum oldu. O, iqtisadi, siyasi, sosial və mədəni sahələrdə aparılan islahatlarla dövlətmizi dirçəltdi və xalqın rəğbətini, ona olan sevgi və inamı qazanmağı bacardı.

Ulu Öndər Azərbaycan xalqının gerçək xilaskarı idi. Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daim hörmətlə anılacaq. Bu xalq, bu dövlət yaşadıqca o da əbədi yaşayacaq!

***Ucar Rayon Statistika İdarəsinin rəisi Nizami Məmmədov***

## 5.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətənpərvərlik ruhunda tərbiyəyə məktəblərdən başlanılıb

## Qazi Sənan Hüseynov: "Onlara hərbi peşənin sirlərini öyrətməklə yanaşı, keçdiyim şərəfli döyüş yolundan danışıram"




***Torpaqlarımızın azadlığı uğrunda aparılan 44 günlük müharibə gənclərin tərbiyəsində vətənpərvərlik ruhunun prioritet olduğunu bir daha təsdiqlədi. Zəfər tariximizi öz qanları ilə yazan qəhrəman oğullarımız da məhz vətənpərvərlik ruhunda böyüyüb tərbiyə alan gənclərimiz idi. Bəs görəsən hazırda məktəblərdə gənclərin vətənpərvər ruhda təlim-tərbiyəsi istiqamətində hansı işlər aparılır?***

Elm və Təhsil Nazirliyindən bildirdilər ki, müəllimlər tərəfindən şagirdlərin vətənpərvər ruhda tərbiyəsi üçün onlarla qəhrəmanlarımızın keçdiyi şərəfli döyüş yolu barədə söhbətlər aparılır. Bundan əlavə , dərsliklərdə də vətənpərvərlik əsas istiqamət olaraq müəyyən edilib.

"Elm və Təhsil Nazirliyinin bu istiqamətdə həyata keçirdiyi bir sıra layihələr məktəblərdə aparılan vətənpərvərlik tərbiyəsi işinin daha da canlanmasına, ardıcıl və sistemli xarakter almasına səbəb olur. Bu baxımdan elm və təhsil nazirinin ümumtəhsil məktəblərinin V-XI siniflərində hər dərs ilində ilk dərslərin "Mənim vətənim - doğma yurdum" mövzusuna həsr edilməsi barədə imzaladığı əmr xüsusilə təqdirəlayiqdir. Həmin əmrə əsasən artıq hər il məktəblərdə yüksək səviyyədə aparılan sözügedən dərslər yeniyetmə və gənclərin vətənpərvərlik ruhunun yüksəlməsində mühüm rol oynayır.Həmçinin artıq təhsil müəssisələrində reallaşdırılmaqda olan Qarabağ tarixinin öyrənilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Təhsil ocaqlarında milli qəhrəmanlarla, Qarabağ uğrunda savaşda böyük igidliklər göstərmiş vətən oğulları ilə keçirilən görüşlər, onların həyat və döyüş yolu ilə gənclərin yaxından tanış edilməsi də gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsinə təsir göstərən amillərdəndir. "Məktəb qəhrəmanları ilə tanınır" adlı sırf vətənpərvərlik ruhu daşıyan layihə milli qəhrəmanlarla görüşlərin keçirilməsini nəzərdə tutur. Tədris ocaqlarında, digər məkanlarda belə tədbirlərin sistemli təşkilinə başlanılıb və təcrübələr də göstərir ki, onlar həqiqətən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində, milli qəhrəmanlarımızın daim yaddaşlarda yaşamasında mühüm rol oynayır".

Nazirlikdən bildirdilər ki, eyni zamanda Vətən müharibəsində iştirak edən qazilərimiz məktəblərdə çağırışaqədər hərbi hazırlıq dərslərini tədris edirlər".

Onlardan biri də Sənan Hüseynovdur. Sənan Hüseynov hazırda Qubadlı rayon 1 nömrəli məktəbdə gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edir. 4 il 8 ay 7 gün hərbi xidmətdə olan Sənan deyir ki, nə vaxtsa məktəbdə müəllim işləyəcəyi ağlına gəlməzdi. Amma keçdiyi döyüş yolu onu qəhrəman kimi yenidən məktəbə gətirib. Vətən müharibəsinin ilk günündən komandir müavini kimi döyüşə atılan S. Hüseynov Cəbrayıl və Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 2-də ayaqlarından və başından 9 güllə yarası alan S. Hüseynov ağır vəziyyətdə hospitala yerləşdirilib. S. Hüseynov hərbiyə yararsız olsa da, bu sahədə biliklərini gələcək nəsilə öyrətməkdə davam edir.

Qəhrəman qazimiz deyir ki, əvvəl dövlətə hərbi formada xidmət edirdisə, indi mülki formada xidmət edir. O, yetişməkdə olan gənc nəslin də vətənpərvər ruhda tərbiyə olunması üçün əlindən gələni etdiyini söyləyir. Bildirir ki, gələcəyin çağırışçılarının vətənpərvər ruhda böyüməsi çox vacib amildir: "Onlara hərbi peşənin sirlərini öyrətməklə yanaşı, keçdiyim şərəfli döyüş yolundan danışıram. Çalışıram ki, şagirdlər vətənpərvər ruhda tərbiyə alsın. Bu bizim ən ümdə vəzifəmiz olmalıdır. Çünki, müəllim təkcə elm öyrətmir. Məktəbin, müəllimin əsas vəzifələrindən biri də vətənpərvər gənclər yetişdirməkdir".

S. Hüseynov deyir ki, insan hansı peşədə çalışmasından asılı olmayaraq əsas amalı Vətənə xidmət olmalıdır: "Şagirdlərimə torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan döyüş yoldaşlarımın da keçdiyi şərəfli yoldan danışıram. Hiss edirəm ki, bu cür söhbətlər gənclərdə vətənpərvərlik hissi oyadır. Onlar torpaqlarımızın necə işğaldan azad edildiyini biləlidirlər ki, o torpaqları qorumağın müqəddəs amal olduğunu dərk etsinlər. Torpaqlarımızı qorumağın ən ümdə vəzifə olduğunu anlayaraq onu daim qorusunlar".

Qeyd edək ki, Azərbaycan xalqının ümummilli lideri, böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasını gənclərin tərbiyəsinə cavabdehlik daşıyan bütün qurumların, xüsusilə də təhsil işçilərinin qarşısında ən mühüm vəzifə kimi qoyur, müxtəlif səviyyəli tədbirlərdə, gənclərlə, müəllimlərlə, ziyalılarla çoxsaylı görüşlərində bu məsələyə dönə-dönə toxunaraq öz müdrik məsləhət, tövsiyə və tapşırıqlarını verirdi. Ulu öndər hələ 1994-cü ildə Bakı şəhərinin təhsil işçiləri ilə görüşündəki nitqində gənclərin vətənpərvərlik tərbiyəsinin zəruriliyinə toxunaraq demişdir: "Müstəqil dövlətdə yaşayan hər bir vətəndaş birinci növbədə bu dövlətin müstəqilliyinin, suverenliyinin təmin olunmasını öz həyatının əsas vəzifəsi və məqsədi bilməlidir. Ona görə də bizim gənclər, təhsil alan gənclər gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər, xüsusən humanitar fənlər gərək gənclərimizə Vətənə sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin və bunlar hər bir gəncin qəlbində sarsılmaz bir qalaya çevrilsin...".

Müstəqil Azərbaycanın memarı, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev də öz çıxışlarında gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasının vacibliyini dönə-dönə vurğulamış, bu işin Azərbaycan dövlətinin gənclər, təhsil siyasətinin prioritet məsələlərindən olduğunu diqqətə çatdıraraq demişdir: "Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsasıdır".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# "Qarabağnamə" qələbədən sonra yeni finalla oynanılacaq

***Aprelin 19-da Heydər Əliyev Mərkəzində yazıçı-dramaturq İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış "Qarabağnamə" tamaşası nümayiş olunacaq.***

Artıq tamaşanın məşqləri gedir. Tamaşa Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Heydər Əliyev və milli teatr sənəti" layihəsi çərçivəsində təqdim ediləcək.

Quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovun olduğu tamaşada, ümumilikdə 21 aktyor iştirak edir. Səhnə əsərində XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın ictimai-siyasi, ailə həyatından bəhs olunur. "Qarabağnamə"nin İbrahim xanı Xalq artisti Kazım Abdullayev, Ağabəyim ağası isə Əməkdar artist Məsmə Aslanqızıdır. Həmin gün Heydər Əliyev Mərkəzinin səhnəsinə Xalq artistləri Əli Nur, Firəngiz Mütəllimova, Hacı İsmayılov, Rafiq Əzimov, Ramiz Məlik, Əməkdar artistlər Elnar Qarayev, Elxan Quliyev, Elşən Cəbrayılov, Əminə Babayeva, Kazım Həsənquliyev və digərləri də çıxacaqlar.

"Qarabağnamə" tamaşasının artıq 27 ildir ki, oynanıldığını deyən baş rol ifaçısı - Xalq artisti Kazım Abdullayev bildirib ki, ondan əvvəl Əlabbas Qədirov, İlham Əsgərov kimi aktyorlar bu rolu ifa ediblər. 15 ilə yaxındır ki, İbrahim xan rolunu canlandırmaq ona da nəsib olub: "Qarabağ bizim dərdimiz idi, ona görə həmişə bu tamaşanı oynayanda Qarabağın əziyyətli günləri yadımıza düşür. Çox şükür ki, biz əsgərlərimiz, Ali Baş Komandanımız sayəsində Qarabağı qaytardıq. Aprelin 19-da bu tamaşanı Heydər Əliyev Mərkəzində oynayacağıq. Ona görə də çox həyəcanlıyıq. Bu, çox məsuliyyətli işdir, ona görə ki, Ümummilli Liderimizin 100 illiyi ərəfəsində bu tamaşa səhnələşdirilib. Hər kəsə müvəffəqiyyət arzu edirəm.

Bundan əvvəl də Heydər Əliyev Mərkəzində Azərpaşa Nemətovun quruluşçu rejissorğulu ilə "Ölülər" tamaşasında oynamışam. Çox gözəl də qarşılanıb. İnanıram ki, bu tamaşa da çox yüksək səviyyədə təqdim olunacaq".

Xalq artisti Firəngiz Mütəllimova da tamaşa ilə bağlı təəssüratlarını dilə gətirib: "Biz neçə ildir bu tamaşanı o həsrətlə oynayırdıq ki, Qarabağımıza qovuşaq. Aprel döyüşləri zamanı mənə sanki bir vəcd gəldi. Qızım şəhid olan yeri elə oynadım ki, özüm də təccübləndim, bu güc mənə haradan gəldi... Səhnənin arxasında həmişə Şuşanı, o yolları, Qarabağı fikirləşə-fikirləşə boynubükük qalırdım, yerimi gözləyirdim. O ümidlərlə ki, biz nəvaxtsa o qalibiyyəti əldə edəcəyik. Arzum odur ki, bu tamaşanı Şuşada oynayaq. Qoy bütün burada iştirak edən personajları ki, biz canlandırırıq, hər birinin ruhu şad olsun. İndi tam fərqli hisslər keçirirəm...".

# Nazirlik “Narınc”ın bu filialını bağladı



***Salyanda “Narınc” Psixologiya Mərkəzinin fəaliyyəti məhdudlaşdırılıb.***

Bu barədə ”Unikal”a Fövqəladə Hallar Nazirliyindən (FHN) məlumat verilib.

Bildirilib ki, nazirliyin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətlərinə uyğun olaraq, ölkə ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir.

Bu çərçivədə, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Salyan şəhəri, Ənnağı Hüseynov küçəsi, 32A ünvanında yerləşən “Narınc” Psixologiya Mərkəzində keçirilmiş yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, həmin nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib.

Mərkəzdə aşağıdakı nöqsanlar aşkarlanıb:

- obyektin istismarı Dövlət Yanğın Nəzarəti Xidməti ilə razılaşdırılmayıb;
- obyekt “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığorta olunmayıb;
- obyektdə avtomatik yanğınxəbərverici siqnalizasiya qurğuları quraşdırılmayıb;
- obyekt ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmayıb;
- elektrik təchizatı və elektrik qurğuları “Elektrik Qurğularının Quraşdırılması Qaydaları”nın tələblərinə uyğun quraşdırılmayıb;
- obyektdə təxliyə planı mövcud deyil;
- mətbəx otağının, sanitar qovşağının tavan sahələri yanar üzlük materialla üzlənib və pilləkən qəfəsi taxta konstruksiyadan inşa edilib;
- daxili qaz boruları yivli birləşmələrlə istismar olunur.

Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın qısa müddətdə genişlənərək faciəni qaçılmaz edəcək.

Qeyd olunanları nəzərə alaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin kobud pozulması faktları aşkar edilmiş Salyan şəhəri, Ə.Hüseynov küçəsi, 32A ünvanında yerləşən “Narınc” Psixologiya Mərkəzinin fəaliyyətinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib.

# Uşaq evindən şikayət edən yeniyetmə direktorla görüşdü



***Uşaq evindən şikayətlənən yeniyetmə direktorla görüşüb.***

”Unikal” xəbər verir ki, bu barədə prodüser Tarix Əliyev məlumat verib.

Belə ki, 3 saylı uşaq evinin rəhbəri Məhbubə Hüseynova bildirib ki, yeniyetmə xəstəxanaya qardaşı yerləşdirməyib: “Xeyr, onu xəstəxanaya Əli yerləşdirməyib. O, özünə qapanmağa başladı. Dedi ki, intihar edəcəyəm. Mənə ayrıca yer verin. Mən də polis bölməsinə müraciət etdim ki, Məhəmmədi 1 saylı xəstəxanaya yerləşdirək və orada müvəqqəti müalicə alsın, əsəbləri sakitləşsin. Burada başqa heç nə yoxdur”.

# Azərbaycanda ən böyük körpünün tikintisinə başlanacaq

***Azərbaycanda ən böyük körpünün inşasına başlanacaq.***

”Unikal”ın məlumatına görə, bunu Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun genişləndirilməsi layihəsi ilə bağlı bu gün Bakıda keçirilən ictimai dinləmələrdə ”Gidrotransproyekt” Elmi Tədqiqat Mərkəzinin direktoru Natiq Əliyev deyib.

O bildirib ki, yeni körpü Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunda inşa ediləcək: ”Həmin ərazi sürüşmə zonası olduğundan orada böyük körpünün inşası planlaşdırılıb. Körpünün uzunluğu 1180, hündürlüyü isə 83 metr olacaq. Körpü Azərbaycanda ən böyük yol ötürücüsü olacaq”.

# DİM buraxılış imtahanının məzmununu açıq şəkildə təqdim etdi

***Dövlət İmtahan Mərkəzi martın 5-də keçirilən imtahanda istifadə olunan test tapşırıqlarını elmi məqsədlər üçün növbəti imtahanların layihələşdirilməsində istifadə etməmək qərarı verib və daha çox imtahan iştirakçılarının, təhsil ictimaiyyətinin maarifləndirilməsi məqsədilə imtahanın məzmununu açıq şəkildə təqdim edir.***




DİM-dən ”Unikal”a verilən xəbərə görə, imtahanda iştirak edənlər, həmçinin valideynlər, müəllimlər, ekspertlər test tapşırıqlarının izahı və onların dövlət standartları, eləcə də tədris proqramına uyğunluğu ilə tanış ola bilərlər. Martın 12-də keçirilən imtahanda istifadə olunan tapşırıqlar da növbəti həftə müvafiq qaydada təqdim olunacaq.

Hər kəs bir daha buraxılış imtahanlarında istifadə edilən bütün test tapşırıqlarının ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklər əsasında hazırlandığı və 2008-ci ildən etibarən tətbiq olunan müvafiq fənlər üzrə təhsil proqramı - kurikulumun təlim nəticələrinə uyğun bilik və bacarıqları yoxlamağa xidmət etdiyinin şahidi ola bilər. Dövlət İmtahan Mərkəzi tərəfindən bu imtahanlar layihələndirilərkən müvafiq dövlət standartları və onların tələbləri əsas götürülür. İmtahanda istifadə olunan bütün tapşırıqlar bəlli standartlar üzrə bilik və bacarıqları yoxlamaq üçündür.

Cədvəllərdə siniflər üzrə fənn kurikulumu alt standartlarının ümumi sayı, 11-ci sinif buraxılış imtahanlarında yoxlanıla bilən alt standartların sayı və faktiki imtahanda yoxlanılan alt standartların sayı göstərilib. Məsələn, riyaziyyat fənni üzrə istifadə olunan tapşırıqlara baxıldıqda, 11-ci sinif səviyyəsi üzrə yalnız bir alt standartın yoxlanıldığının şahidi olmaq mümkündür. Digər tapşırıqlar 5-10-cu sinif səviyyəsi üzrə alt standartların yoxlanılmasına aiddir. Təqdim olunan izahlarda isə hər bir tapşırığın konkret olaraq hansı standartı yoxlamağa xidmət etdiyini də görmək mümkündür.

İmtahanlar eyni struktur, standart və tələblər əsasında hazırlanır. Sadəcə şagirdlərin bu imtahanların çətinlik səviyyəsi haqqındakı təəssüratları onların hazırlıq səviyyələrindən asılı olaraq fərqlənir. Belə ki, hazırlıqlı şagirdlər üçün suallar asan, zəif şagirdlər üçün çətin görünə bilər. Lakin imtahanların nəticələri elmi-statistik cəhətdən təhlil olunmadan onun mürəkkəblik səviyyəsi haqqında qəti fikir söyləmək düzgün deyil. Bu yaxınlarda son 4 ilin göstəriciləri ictimaiyyətə təqdim olunub. Hamısı bir-birinə yaxın idi. İlkin təhlillərə əsasən, builki imtahan nəticələrinin də ötənilki ilə müqayisədə təxminən bərabər olduğunu söyləyə bilərik. Fərq statistik xəta çərçivəsində ola bilər. Geniş təhlillər bütün istiqamətlər üzrə nəticələr elan olunduqdan sonra ictimaiyyətə təqdim olunacaq. Ötən il keçirilən imtahanların müfəssəl təhlili də yaxın vaxtlarda “Abituriyent” jurnalının 12-ci sayında dərc olunacaq.

Martın 5-də keçirilən imtahanların nəticələrinin gələn həftə ərzində elan olunması nəzərdə tutulur. Hər bir şagird öz imtahan nəticəsi səhifəsinə daxil olub yazdıqları, həmçinin ətrafl yazılı cavab tələb edən tapşırıqlar üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış ola biləcək.

Valideynlərə, müəllimlərə və ekspertlərə bir daha tövsiyə edilib ki, imtahanda istifadə olunan test tapşırıqları, yoxlanılması zəruri olan standartlar, şagirdlərin nəticələri elan olunandan sonra isə onların yazı işləri ilə diqqətlə tanış olsunlar və bunlar geniş təhlil olunsun. Bu təhlillər şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsinə yön verməli və onların gələcək imtahanlara daha da yaxşı hazırlaşmaları üçün zəmin yaratmalıdır.

# Hərbi Prokurorluq və XTQ Heydər Əliyevin 100 illiyini qeyd etdi

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Hərbi Prokurorluğun və Xüsusi Təyinatlı Qüvvələrinin birgə tədbiri keçirilib.***



Hərbi Prokurorluğun mətbuat xidmətindən ”Unikal”a bildirilib ki, tədbirdə çıxış edənlər H.Əliyevin ömür yolundan, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışlarda, həmçinin Ulu Öndərin Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə görülmüş müstəsna əhəmiyyətli işlərdən, Silahlı Qüvvələrimizin formalaşmasından danışıblar. Bundan başqa, Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Qələbə xüsusi vurğulanaraq, hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib.

# Rayonlarda meliorativ tədbirlər davam etdirilir

***Mil - Qarabağ və Aşağı Şirvan ərazilərində kollektorlar təmizlənir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Mil-Qarabağ və Aşağı Şirvan kollektorlarında işlər mövsümə uyğun olaraq sürətlə davam edir. Görülən işlərin əsas məqsədi kollektor sistemlərini lildən və duzdan təmizləmək, şoranlaşmanın qarşısını almaqla torpaqların münbitliyini artırmaqdır. Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi ötən il olduğu kimi bu ildə meliorativ tədbirlərini davam etdirir. Hazırda balansda olan kollektor-drenaj sistemləri lildən təmizlənir, nasosstansiyalarda təmir-bərpa işləri aparılır.***



Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi tərəfindən görülən işlər nəticəsində uzun illər əkin üçün istifadəyə yararsız torpaqlarda yenidən taxıl, qarğıdalı, bostan-tərəvəz və digər bitkilərin əkilməsinə başlanılıb. Bu isə kənd təsərrüfatının inkişafına töhfə verməklə yanaşı, ərazidə yaşayan kənd əhalisinin məşğulluğunun artmasına səbəb olur. İdarə tərəfindən 2022-ci ildə mexanizmlərlə 1 milyon 180 min kubmetr lildən təmizləmə işləri həyata keçirilib, 25 ədəd hidrotexniki qurğuda cari təmir işləri aparılıb. Ötən il nasos stansiyalar vasitəsilə 1 milyon 110 min kubmetr su vurulub. Axıdılan duzun miqdarı isə 688 min ton olub.

Qeyd edək ki, Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi Respublikanın 6 rayonuna xidmət edir. İdarənin balansında 4889 km uzunluğunda kollektor-drenaj şəbəkəsi mövcuddur. Bu kollektorlar vasitəsilə 173000 hektardan artıq meliorasiya olunmuş sahəyə xidmət olunur.

Qusarda da meliorativ tədbirlər görülür. Dilqəm Şərifov bildirib ki, ölkəmizin bütün bölgələrində olduğu kimi, Qusar rayonunda da əkin və bağ sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Hazırda rayon Suvarma Sistemləri İdarəsi tərəfindən yeni mövsümə hazırlıq işləri görülür. Bu məqsədlə torpaq məcralı kanallar lil və kol-kosdan təmizlənir. İstismar planına əsasən cari ildə 680 min kubmetr lildən təmizləmə işlərinin görülməsi nəzərdə tutulub. Artıq bu işlərin böyük hissəsi görülüb.

Yeni suvarma mövsümünə hazırlıq məqsədi ilə görülən işlərdən biri də torpaq kanalların beton üzlüyə alınmasıdır. Bu da öz növbəsində su istehlakçılarını vaxtında və itkisiz suvarma suyu ilə təmin etməyə imkan verir.

Vaxtında görülən meliorativ tədbirlərin nəticəsidir ki, artıq əvvəllər yaşanan problemlər aradan qalxıb. Hazırda təsərrüfat sahibləri sahələrini suvarmaqda heç bir çətinlik yaşamırlar. Bu da öz növbəsində daha çox məhsul istehsalına zəmin yaradır.

Bununla yanaşı rayon ərazisindən keçən çayların daha çox təhlükə gözlənilən hissələrində daşqın və selə qarşı mübarizə tədbirləri görülərək, çay məcraları tənzimlənir, sahilqoruyucu və su istiqamətləndirici bəndlər qurulur. Qeyd edək ki, Qusar rayonunda 29 min 300 hektar suvarılan ərazi mövcuddur. Bu sahələr 1579 km uzunluğunda olan kanallar vasitəsi ilə suvarılır. Bu kanalların 1381 km-i torpaq, 187 km-i isə beton məcralıdır.

Hacıqabulda torpaq məcralı kanal beton üzlüyə alınıb. Dilqəm Şərifov bildirib ki, Hacıqabul Suvarma Sistemləri İdarəsi yaz-yay suvarma mövsümü üçün hazırlıqlarını yekunlaşdırmaq üzrədir. İdarə mülkiyyətdə olan meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil edir, bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir. Rayon ərazisində əkilən kənd təsərrüfatı bitkilərinin vaxtında suvarılması isə öndə duran vəzifələrdən biridir. Suvarılmanın mütəşəkkil aparılması üçün hər il rayon ərazisində olan torpaq kanallar betonla əvəzlənir ki, bu da su itkisinin qarşısını alır. Bu məqsədlə Meyniman suvarma sahəsi üzrə torpaq məcralı Ələtli kanalının bir hissəsi üzərindəki 7 ədəd hidrotexniki qurğularla birlikdə əsaslı təmir olunaraq betonla üzlənərək istismara verilib.

Əkinlərin su təminatının yaxşılaşması üçün cari ildə idarənin texnikaları vasitəsilə 332 km magistral və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri yerinə yetirilib. İdarə üzrə cari ildə 78 ədəd hidrotexniki qurğu, 2 km növ kanallar, 3 km beton kanallarda, 2 km boru xətlərində cari təmir işləri görülüb.

Bununla bərabər quraq keçən vaxtlarda əkinlərin su təminatında yaranmış çətinliklərin aradan qaldırılması üçün daxili imkanlar səfərbər edilərək vəziyyətdən çıxmaq mümkün olub. 2023-cü təsərrüfat ili üçün əkilən bitkilərin suvarılması hazırda davam edir. Taxıl suvaran fermerlər bu il sahələrdən bol məhsul gözləyirlər. Çünki, vaxtında aparılan suvarma bunu deməyə əsas verir.

Qeyd edək ki, Hacıqabul Suvarma Sistemləri İdarəsi 19 min hektara yaxın suvarılan torpaqlarda kənd təsərrüfatı əkinlərini, meşə zolağını və rayonun 34 min hektar qış otlaqlarında su təminatını həyata keçirir.

***Hüseyn İsgəndərov***



# Vətən yolunda ölmək şərəfi

***Ehtiram Həsən oğlu Hüseynli İkinci Qarabağ müharibəsində ürəkdən bağlandığı Vətəninin torpağına, daşına qurban deyib canından keçdi. Məhz buna görə də ölümü həyat qədər dəyərli oldu. Qanı bahasına sevdalandığı Vətəni yaşatmaqla ömrünün 43-cü ilində adı Azərbaycanın yeni, şanlı tarixinə yazıldı. Beləcə, xalqın, qeyrətli oğlu torpağa gömülmədi, milyonların könlünə köç etməklə əbədiyyət dünyasına qovuşdu.***

1977-ci il aprel ayının 17-də Lənkəran şəhərində anadan olan Ehtiram Hüseynli saf, müqəddəs arzuların qanadında gələcəyə yol alır. Xalqına, Vətəninə layiqli vətəndaş, bu dünyanın ən yaxı insanı olmaq üçün Lənkəran şəhər 6 saylı tam orta məktəbində oxuyub öyrənməkdən doymur. Nəticədə 1994-cü ildə orta təhsilini başa vuranda sağlam düşüncəsi, savadı, yüksək insanı keyfiyyətləri ilə el-obada tanınır, sevilir.

Ehtiram həyatının ən qaynar çağlarına Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetdə başlayır. Ali məktəbin İlkin hərbi və fiziki təlim fakültəsinin tələbəsi olur. Mədəniyyəti, etikası, millətinin xoş gələcəyi naminə öyrənmək həvəsi, sevdiyi peşəsinə məhəbbəti tələbə Ehtirama uğur gətirir. 1998-ci ildə universiteti leytenant rütbəsi ilə başa vurub doğma təhsil ocağı olan Lənkəran şəhər 6 saylı tam orta məktəbində hərbi müəllimi kimi pedaqoji fəaliyyətinə başlayır.

Gənc müəllim ilk gündən şagirdlərin qarşısına ürəklə çıxır. Təmiz, ədalətli, namuslu fəaliyyəti işıqlı gələcəyə doğru yollar açır. Lənkəranlıların gözündə öz sənətini ürəkdən sevən, Vətənə, torpağa bağlı, xalq üçün yaşamağı bacaran ziyalı kimi ucalan Ehtiram müəllim 2 ildən sonra könüllü olaraq hərbi xidmətə yollanır. Naxçıvan Muxtar Respublikasının Böyük Soyuq adlanan ərazisində adına can dediyi, canından artıq sevdiyi doğma Azərbaycanın keşiyində dayanır. 2 illik ordu həyatında ona ləyaqətlə xidmət edir. Ən əsas əməlləri, əsgərlərə qarşı xoş rəftarı nümunə olur. 2002-ci ildə leytenant rütbəsindən baş leytenant rütbəsinə qalxır. Hərbi xidməti bitirib yenidən iş yerinə qayıdır. Müəllimlik peşəsini davam edir. 23 il Lənkəran şəhər 6 saylı tam orta məktəbdə Gənclərin Çağırışaqədərki Hazırlığı fənnindən dərs deyir. Gənc nəslin təlim-tərbiyəsi, sağlam, vətənpərvər böyüməsi Ehtiram müəllimin həyat amalın çevrilir.

Bütün bunlarla bərbər Ehtiram müəllim həmişə Vətən torpaqların erməni faşistlərinin tərəfindən işğalına qarşı barışmaz mövqe tutur və döyüş əmrinin verilməsini gözləyir. İkinci Qarabağ müharibəsi başlanan kimi əyninə cəngavər libasını geyinib tabor komandiri vəzifəsində döyüş meydanına girir. Dəfələrlə dığaların atəş nöqtələrini susdurur, yağının çoxlu canlı qüvvəsini məhv edir. Hər qələbəyə ürəkdən sevinir, düşmənə qarşı nifrəti daha da alovlanır. Füzuli, Cəbrayıl rayonları istiqamətində gedən şiddətli döyüşlərdə göstərdiyi şücaətlə adsan çıxardır. Baş leytenant 21 oktyabrda Qubadlı uğrunda gedən haqq savaşımızın da qəhrəmanı olur. Vətənin qeyrətini canından üstün tutan igid komandir son damla qanına qədər vuruşub burada şəhadətə qovuşur.

Şərəfli ölümü Vətəninə, millətinə başucalığı gətirən Ehtiram Hüseynli "Vətən uğrunda", Cəbrayılın və Zəngilanın azadlığına görə medalları ilə təltif olunub.

***Zəfər Orucoğlu, AJB üzvü***

## Ermənistan ehtiyatda olan hərbçiləri toplayır - QƏRAR



***Ermənistan hökuməti ehtiyatda olan hərbçilərin hərbi təlimlərə cəlb edilməsi barədə qərar qəbul edib.***

”Unikal” ”Hraparak” nəşrinə istinadən xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin bugünki iclasında məlumat verib.

Onun sözlərinə görə, 2023-cü il mayın 1-dən iyulun 7-si daxil olmaqla, I qrup ehtiyatda olan birinci və ikinci dərəcəli hərbi qulluqçuların, gizir və zabitlərin təlim-məşq toplanışı olacaq.

Təlimlərə 2 715 nəfər Ermənistan vətəndaş cəlb olunub.

## "Rusiyanın yeganə yolu döyüşləri davam etdirməkdir" - Kreml

***”Hələlik bizim üçün xüsusi hərbi əməliyyatın davam etdirilməsindən başqa yol yoxdur”.***

”Unikal” xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

Onun sözlərinə görə, müharibənin məqsədlərinə müxtəlif yollarla nail olmaq olar: ”Qərb ölkələri ilə geniş kontekstdə müharibə, dost olmayan ölkələrlə qarşıdurma və Rusiya Federasiyasına qarşı hibrid müharibə - bu, uzun proses ola bilər”.

***Ağazra Elçinoğlu***

## "İsveç də NATO-ya üzv olacaq" - Stoltenberq

***”İsveç Türkiyə və Macarıstanın müqavimətinə baxmayaraq, Şimali Atlantika Alyansının üzvü olacaq”.***



”Unikal” xəbər verir ki, bunu NATO-nun baş katibi Yens Stoltenberq CNN telekanalına müsahibəsində bildirib.

O, həmçinin Ukraynanın ehtiyaclarını ödəmək üçün sursat istehsalını artıracağına söz verib.

”Rusiya-Ukrayna münaqişəsi logistika müharibəsinə çevrilib. Biz hasilatı artırmaq üçün müdafiə sənayesi ilə sıx əməkdaşlıq edirik, qismən öz ehtiyatlarımızı doldura bilək, lakin biz Ukraynanı da dəstəkləməyə davam edirik”, - NATO-nun baş katibi əlavə edib.

Xatırladaq ki, aprelin 4-də Finlandiya NATO-nun rəsmi üzvü olub.

## Bolqarıstan limanlarını Rusiya gəmilərinə tamamilə bağladı

***Bolqarıstan AB-nin sanksiyaların tətbiqi üzrə bütün limanlarını Rusiya gəmilərinin girişinə bağlayıb.***

”Unikal” xəbər verir ki, müvafiq qadağa aprelin 8-dən qüvvəyə minəcək və Rusiya dəniz gəmiçiliyi reyestrində qeyd olunan gəmilərə şamil ediləcək.

# "Azərbaycanla sərhəddə kartoqraflar işləyir" - Paşinyan

***Ermənistanı Laçın dəhlizinə birləşdirən yeni Kornidzor-Teğ avtomobil yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın dəhlizinə gedən marşrutda dəyişiklik olacaq, bunun nəticəsində Laçın dəhlizinin 12 km-lik hissəsi mühafizə olunacaq. Ermənistan-Azərbaycan sərhədi Ermənistan Sərhəd Qoşunları tərəfindən nəzarətə götürüləcək.***



”Unikal” xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan bu gün, aprelin 6-da hökumətin iclasında bildirib.

Onun sözlərinə görə, Azərbaycanla sərhədin 7 km-də yerləşmə məntəqələri dəqiqləşdirilib, 5 km-də kartoqraflar işləyir.

”Ümid edirəm ki, yerləşmə məntəqələrinin tənzimlənməsi konstruktiv şəraitdə həyata keçiriləcək. Bu qeyri-sabit və qeyri-müəyyən qlobal mühitdə regional vəziyyəti partlatmaqda maraqlı olan qüvvələrə xərac verməmək üçün bizə güclü təmkin lazımdır”, - deyə o, vurğulayıb.

***Gülayə Mecid***

# "Şoyqu və Gerasimov Putini məhv edə bilər" - Rusiyalı polkovnik

***Vladimir Putin Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqu və Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı Valeri Gerasimovun qurbanına çevrilə bilər.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bunu Rusiyalı müxalifətçi, FTX polkovniki Gennadi Qudkov yerli KİV-ə müsahibəsində deyib.

”Putin xarici siyasəti qiymətləndirməkdə dəli ola bilər, lakin o, öz həyatı üçün təhlükəni çox yaxşı hiss edir. Xatırladım ki, müharibə başlamazdan əvvəl o, mühafizə və texniki xidmət personalını tamamilə dəyişmişdi. O, təhlükənin yaxınlaşdığını hiss edir. Putin üçün ən böyük təhlükə onun öz mühitidir. O, NATO-dan qorxmur, bütün bunlar tənqidi düşüncəsi olmayan xalq üçün bir tilsimdir. O, xalqdan qorxmur, çünki bir milyon təhlükəsizlik qüvvəsi onu müdafiə edir. Putin yalnız tərəfdaşlarından qorxur. Fərz edək ki, Şoyqu və Gerasimov Putinin xeyirdən çox zərər verəcəyinə qərar verib. Onlar ABŞ-da Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri



Bernsə zəng edəcək və Putini aradan götürməyi planlaşdıracaqlar. Bu, real ola bilər”, - Qudkov bildirib.

***Gülayə Mecid***

# Rusiyada silahlılar 3 polisi öldürdü - 7 yaralı

***Rusiyanın İnquşetiya vilayətinin Malqobek rayonunda hüquq-mühafizə orqanlarının əməkdaşları ilə terrorçular arasında silahlı qarşıdurma baş verib.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiyanın Dövlət Təhlükəsizlik Xidməti (FTX) məlumat dərc edib.

Məlumata görə, atışma nəticə-



sində 3 polis əməkdaşı həlak olub. Ölənlər arasında yüksək rütbəli rayon polis zabiti də var.

Mühasirəyə alınan silahlılar müqavimət göstərib. Atışma bütün gecə davam edib.

Atışma zamanı daha 7 nəfərin yaralandığı qeyd olunub.

***A.Elçinoğlu***

# Baxmutda küçə döyüşləri başlayıb

***Ukrayna Silahlı Qüvvələrinin hərbçiləri kütləvi şəkildə Baxmut şəhərindən geri çəkilməyə başlayıb.***

”Unikal” Rusiya KİV-ə istinadən xəbər verir ki, hazırda Baxmutskaya və Spartakovskaya küçələrində şiddətli döyüşlər gedir.

Məlumata görə, gecə saatlarında bir neçə Vaqner hücum qrupu termal kameralar, gecəgörmə cihazları və artilleriya ilə silahlanaraq Baxmut şəhərinə girib.

Qeyd edək ki, Ukrayna lideri Volodimir Zelenski hərbçilərinin təhlükədə olacağı təqdirdə Baxmutdan çıxmaq əmri veriləcəyini açıqlamışdı.

***Ağarza***





## Finlandiya hökuməti istefa verdi

***Baş nazir Sanna Marinin rəhbərlik etdiyi Finlandiya hökuməti istefa verib.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, o, rəhbərlik etdiyi Sosial Demokrat Partiyasının (SDP) parlament seçkilərində uduzmasından sonra istefa məktubu prezidentə verib.

Niinista hökumətin istefasını qəbul edib. Hökumət hələlik yeni kabinet formalaşana qədər fəaliyyətini davam etdirəcək. Marin həm də varisi seçilənə qədər ölkənin baş naziri olaraq qalır.

# Millimiz FIFA reytinqində 3 pillə geriləyib



***Azərbaycan millisi FIFA reytinqində 3 pillə geriləyib.***

Canni De Byazinin baş məşqçisi olduğu komanda hazırda 1142 xalla 124-cü sırada qərarlaşıb.

Buna yığmanın AVRO-2024-ün seçmə mərhələsində Avstriyaya 1:4 və İsveçə 0:5 hesablı məğlubiyyətləri səbəb olub.

Bir pillə irəliləyən Türkiyə seçməsi 1465 xalla 43-cü yeri tutub.

Reytinqin zirvəsində dəyişiklik olub. 2022-ci ildə Qətərdə keçirilən dünya çempionatının qalibi olan Argentina millisi liderliyi ələ keçirib. "Tanqoçular" 1840 xala malikdirlər. Fransa yığması ikinci pilləyə irəliləyibsə, əvvəlki reytinqin lideri Braziliya seçməsi üçüncü sıraya düşüb.

**İlk "10-luq":**

**1. Argentina - 1840 xal**
**2. Fransa - 1838**
**3. Braziliya - 1834**
**4. Belçika - 1792**
**5. İngiltərə - 1792**
**6. Niderland - 1731**
**7. Xorvatiya - 1730**
**8. İtaliya - 1713**
**9. Portuqaliya - 1707**
**10. İspaniya - 1682**

AVRO-2024-ün seçmə mərhələsinin F qrupu:

**4. Belçika - 1792**
**22. İsveç - 1558**
**32. Avstriya - 1508**
**108. Estoniya - 1182**
**124. Azərbaycan - 1142**

Postsovet məkanı:

**30. Ukrayna - 1530**
**37. Rusiya - 1495**
**74. Özbəkistan - 1318**
**77. Gürcüstan - 1311**
**96. Qırğızıstan - 1225**
**97. Ermənistan - 1224**
**98. Belarus - 1210**
**108. Estoniya - 1182**
**109. Tacikistan - 1182**
**112. Qazaxıstan - 1177**
**124. Azərbaycan - 1142**
**132. Latviya - 1110**
**137. Türkmənistan - 1095**
**146. Litva - 1068**
**171. Moldova - 972**

# "Qəbələ"nin "Zirə" ilə 33-cü dueli

***Bu həftə Misli Premyer Liqasında 29-cu turun oyunları keçiriləcək. Turun ilk günündə meydana çıxacaq "Qəbələ" "Zirə" ilə qarşılaşacaq.***

"Unikal" "Qəbələ"nin saytına istinadən xəbər verir ki, qarşılaşma Qəbələ şəhər stadionunda təşkil olunacaq. Bu, iki komanda arasında 33-cü duel olacaq. İndiyədək rəqiblər 32 dəfə görüşüb. 12 qələbə qazanan "Qəbələ" 14 heç-heçə edib və 6 dəfə məğlub olub. Rəqib qapısına 43 qol vuran "qırmızı-qaralar" 28 top buraxıb. "Qəbələ"nin bu oyunlarda ən yaxşı bombardiri 4 qol vuran Aleksey Qaydır. Ülvi İsgəndərovun hesabında üç top var.



İndiyədək keçirilən 32 görüşdən 30-u çempionat, 2-si kubok çərçivəsində keçirilib. Premyer Liqada 10 dəfə qalib gələn komanda 14 matçdan 1 xalla ayrılıb. Digər 6 matçda Bakı klubu qələbə qazanıb. Bu oyunlarda 36 qol vuran "qırmızı-qaralar" 26 top buraxıb.

"Qəbələ" 16-cı dəfə "Zirə"ni öz meydanında qəbul edəcək. 6 qələbəsi olan meydan sahibləri 8 sülhə imza atıb və yalnız 1 dəfə uduzub. Doğma divarlar arasında 20 qol vuran "Qəbələ" 10 top buraxıb.

Xatırladaq ki, aprelin 7-də Qəbələ şəhər stadionunda keçiriləcək "Qəbələ" - "Zirə" matçı saat 17:00-da başlayacaq.



# Gimnastlarımız Fransaya yollandı

***Bədii gimnastika üzrə Azərbaycanın böyüklərdən ibarət qrup hərəkətləri üzrə yığması Fransanın Tiye şəhərində keçiriləcək 34-cü beynəlxalq Qran Pridə iştirak edəcək.***

Federasiyadan "Unikal"a verilən məlumata görə, Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Darya Sorokinadan ibarət kollektiv və fərdi gimnast Zöhrə Ağamirova artıq sözügedən ölkəyə yollanıblar.

Bu gün start götürən yarış aprelin 10-dək davam edəcək.

# Benzema Raulu geridə qoydu

***"Real"ın futbolçusu Kərim Benzema "El-Klassiko" tarixinin ən çox qol vuran 4-cü oyunçusu olub.***




Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, o, buna İspaniya kubokunun yarımfinalında "Barselona"ya qarşı cavab matçında (4:0) het-trik etməklə nail olub. Beləliklə, fransalı hücumçu "El-Klassiko"da vurduğu qolların sayını 16-ya yüksəldib. Benzema "El-Klassiko" tarixlərində ən çox qol vuran futbolçular siyahısında "Real"ın sabiq oyunçusu Raul Qonzalesi geridə qoyaraq 4-cü pilləyə yüksəlib.

Qeyd edək ki, siyahıya "Barselona"nın sabiq futbolçusu Lionel Messi (26 qol) başçılıq edir. Alfredo Di Stefano və Kriştiano Ronaldo 18 qolla 2-3-cü pillələri bölüşdürürlər.

# Lempard "Çelsi"nin müvəqqəti baş məşqçisi təyin edildi

***Frank Lempard "Çelsi"nin müvəqqəti baş məşqçisi təyin edilib.***

Qol.az insayder Fabrizio Romanonun "Tvitter" səhifəsinə istinadən xəbər verir ki, London təmsilçisinin sabiq baş məşqçisi ilə bu mövsümün sonuna qədər müqavilə bağlanıb. Bildirilib ki, klub uzunmüddətli layihə üçün yeni məşqçi axtarışı prosesini davam etdirəcək.

44 yaşlı mütəxəssis 2019-cu ilin yayından və 2021-ci ilin yanvarına kimi London təmsilçisini çalışdırıb, daha sonra "Everton"a keçib. Lempard yanvardan işsiz idi.

Xatırladaq ki, aprelin 2-də "Çelsi" baş məşqçisi Qrem Potteri istefaya göndərdiyini açıqlayıb.